Bu bir xalq qəzetidi
ƏDALƏT

## Prezidentin Şuşadakı xüsusi nümayəndəsi ilə görüş keçirildi

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzdə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimovla görüş keçirilib.**

Adalet.az xəbər verir ki, görüş zamanı qurumlararası əlaqələndirmə funksiyasını yerinə yetirən İdarələrarası Mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verilib, xüsusi nümayəndəliyin vəzifələri və fəaliyyət istiqamətlərinə uyğun olaraq İdarələrarası Mərkəzlə birgə görüləcək işlər barədə fikir mübadiləsi aparılıb. Habelə görüşdə dövlət başçısının təşəbbüsü və müvafiq Sərəncamı ilə yaradılmış Prezidentin xüsusi nümayəndəsi institutunun işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin sistemli, ardıcıl və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi istiqamətində İdarələrarası Mərkəz və onun nəzdində fəaliyyət göstərən İşçi qruplarla qarşılıqlı əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Gələcəkdə Prezidentin xüsusi nümayəndələrinin iştirakı ilə İdarələrarası Mərkəzin müvafiq İşçi qruplarının birgə iclaslarının da keçirilməsinin zəruriliyi vurğulanıb.

**Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.**

## Mikayıl Cabbarov: "Aktiv vergi ödəyicilərinin sayı artıb"



**”Aktiv vergi ödəyicilərinin sayında artım müşahidə edilir”. Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov sosial media hesabında yazıb. Nazir bildirib ki, 2020-ci il ərzində onların sayı 24 faizdən çox artaraq, 616 mini ötüb. O əlavə edib ki, aktiv ƏDV ödəyicilərinin sayında 17 faizdən çox artım olub.**

## Ölkə üzrə ən çox yoluxma Bakıda, ən az isə Naxçıvandadır



**Azərbaycanda koronavirusa yoluxanların 52,2 faizi Bakı şəhərinin payına düşür. Adalet.az-ın məlumatına görə, ölkə üzrə ikinci ən çox yoluxma Aran zonasındadır. Bu ərazidə yoluxma 13,3 faizə çıxıb. Abşeron rayonu yoluxmaya görə 12,9 faizlə 3-cü yerdə, Gəncə-Qazax zonası isə 8,1 faiz yoluxma ilə 4-cü yerdədir. 3,0 faiz yoluxma Quba-Xaçmaz, 3,2 Şəki- Zaqatala rayonları, 2,9 faizi Lənkəran rayonu, 1,4 faizi Yuxarı Qarabağ bölgəsi, 2,5 faizi isə Dağlıq Şirvan ərazilərində qeydə alınıb. Naxçıvanda isə son statistikaya görə koronavirusa yoluxma halı 0,005 faiz qeydə alınıb.**

Ölkədə koronavirusa yoluxanların 21 faizi 50-59 yaş arasında, 18 faizi isə 30-39 yaş arasında olan şəxslərdir. Yoluxanların 5 faizini 0-9 yaş, 2 faizini isə 80 yaşdan yuxarı şəxslər təşkil edir. Yoluxanların 54 faizi qadın, 46 faizi isə kişilərdir.

## FHN: ötən gün 7 nəfər xilas edilib, 1 nəfərin meyiti aşkarlanıb




**Ötən gün Fövqəladə Hallar Nazirliyinin (FHN) ”112” qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 41 yanğına çıxış və 5 halda köməksiz vəziyyətdə qalma faktları üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib.**

Nazirlikdən Adalet.az -a bildirilib ki, görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib. Ümumilikdə, ötən sutka ərzində 7 nəfər xilas edilib, bağlı qapı arxasında qalmış 1 nəfərin meyiti isə aşkar olunaraq aidiyyəti üzrə təhvil verilib.

Belə ki, Bakı şəhərinin Nərimanov rayonunda mənzildə 1949-cu il təvəllüdlü Babayev Zülfü Cəmaləddin oğlunun meyiti aşkarlanıb.

## Bakıda Hərbi Qənimətlər Parkı yaradılır

**Bakıda Hərbi Qənimətlər Parkı yaradılır. Adalet.az-ın məlumatına görə, park Xətai rayonu ərazisində yerləşir. Ərazidə tikinti işləri davam etdirilir.**

**Vətən müharibəsində Azərbaycan Ordusunun darmadağın etdiyi düşmənə aid hərbi texnikaların bir qismi park ərazisində yerləşdirilib.**

**Həmin hərbi texnikaların bir qismi ötən il dekabrın 10-da keçirilən Zəfər paradında da nümayiş olunmuşdu.**

## Kamran Əliyev İlkin Süleymanovla bağlı məhkəməyə müraciət edib



**Baş prokuror Kamran Əliyev ötən il yanvarın 6-da küçədə yanmış vəziyyətdə meyiti tapılan 10 yaşlı Nərmin Quliyevanın qətli ilə bağlı aparılan istintaq üçün məhkəməyə müraciət edib.**

N.Quliyevanın qətlində qonşusu İlkin Süleymanov ittiham edilir. Lakin İ.Süleymanov artıq 13 aydır həbsdə saxlanılsa da, istintaq yekunlaşmır. Prosessual qanunvericiliyə əsasən, istintaq 13 ay ərzində yekunlaşmalıdır. Cinayət işində təqsirləndirilən şəxslərin sayının, yaxud iş materiallarının çox olmasına görə Baş prokuror və ya onun birinci müavini zərurət olduğu halda istintaqı daha 6 ay uzada bilər. "Qafqazinfo"nun verdiyi xəbərə görə, bu işə baş prokurorun birinci müavini prosessual rəhbərlik etdiyi üçün Baş prokuror Kamran Əliyev özü fevralın 1-də Nəsimi rayon məhkəməsinə müraciət edərək, istintaqın daha 4 ay uzadılmasını istəyib. Məhkəmə K.Əliyevin təqdimatını təmin edib və İ.Süleymanovun daha 4 ay həbsdə qalmasına qərar verilib. Baş prokuror müddətin artırılması zərurətini iş materiallarının çox olması ilə əsaslandırıb. İstintaqın işi məhkəməyə göndərmək üçün bu dəfə artırılan 4 aydan əlavə 2 ay da vaxtı var. Qanun 13 aydan sonra maksimum 6 ay uzadılmaya imkan verir. Daha sonra isə ya iş sübutlarla birgə məhkəməyə göndərilməli, yaxud da cinayət işinə xitam verilərək, İ.Süleymanov azadlığa buraxılmalıdır.

İ.Süleymanovun vəkili Əlibaba Rzayev bildirib ki, Nəsimi rayon məhkəməsinin qərarından apelyasiya şikayəti veriblər.

**Ə.Rzayev qeyd edib ki, bu işlə İ.Süleymanovun əlaqəsi olmadığı üçün ortada sübut da yoxdur: "İstintaq da sübut formalaşdıra bilmədiyi üçün iş məhkəməyə göndərilə bilmir".**

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 15 (5847) 9 fevral 2021-ci il | Qiyməti 30 qəpik

## Zərif: Qarabağ münaqişəsindən sonra bölgədə yeni imkanlar yaranıb



**Qarabağ münaqişəsinin başa çatmasından sonra bölgədə yeni imkanlar yaranıb. Bunu İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif deyib.**

M.C.Zərifin sözlərinə görə, bu imkanlardan biri dəmiryol xətləridir. Onlardan biri Culfa dəmiryol xəttidir, ikinci dəmiryol xətti isə İranı Rusiyaya birləşdirir. Bu dəmiryol xətləri uzun illər idi ki, fəaliyyət göstərmirdi:

”Hazırda Qafqazda yeni bir əməkdaşlıq platformasının yaradılması ilə Azərbaycan və Ermənistan, Gürcüstan və Rusiya, həmçinin Ermənistan və Türkiyə arasında stabilliyin əldə olunmasına imkan yaranıb”.

XİN rəhbəri deyib ki, doğrudur ötən illərdə İran tranzit və digər sahələrdə bir sıra problemlərlə üzləşib. Lakin bu problemlər artıq arxada qalmaqdadır.

# Prezident Baş Prokurorluğun yeni binasının açılışında



Bax:səh-2

## Nazirdən müraciət:Maska taxmaq, sosial məsafəni qorumaq olduqca zəruridir



**Sosial məsafəni qorumaq, maska taxmaq və şəxsi gigiyena qaydalarına riayət etmək olduqca zəruridir.**

Adalet.az-ın məlumatına görə, bunu Təhsil naziri Emin Əmrullayev sosial şəbəkədəki səhifəsində yazıb.

Nazir qeyd edib ki, ənənəvi tədris forması mərhələli şəkildə bərpa olunur. İlkin mərhələdə bölgələrdəki ümumi təhsil müəssisələrində və uşaq-gənclər inkişaf mərkəzlərində təhsil alan şagirdlərimiz əyani formada dərslərdə iştirak edirlər.

## Sülhməramlılar Kəlbəcərə humanitar yükün çatdırılmasını təmin edib



**Rusiya sülhməramlı kontingenti Azərbaycanın işğaldan azad olunmuş əraziləri arasında humanitar yüklərin tranzitini təmin etməyə davam edir.**

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Qeyd edilib ki, sosial obyektlərin, yaşayış evlərinin enerji və su təminatı sistemlərinin bərpası üçün Humanitar Yardım Mərkəzinin ”KamAZ” markalı 20 hərbi avtomobili və onları müşayiət edən 5 avtomobildən ibarət ikinci kolonnası Kəlbəcər rayonuna 150 tondan çox tikinti materialı çatdırıb. Kolonnanın marşrutu Suqovuşan və Vəng yaşayış məntəqələrindən keçib.

Yükün çatdırılması Azərbaycan, Rusiya və Ermənistan arasında noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən həyata keçirilib.

## Koronavirusa yoluxmuş şəxslər peyvənd olunacaq?



*TƏBİB koronavirusa yoluxmuş şəxslərin peyvənd olunmasının nəzərdə tutulub-tutulmayacağına aydınlıq gətirib.*

*Adalet.az-ın məlumatına görə, TƏBİB-dən bildiriblər ki, koronavirusa yoluxan şəxslər ilkin mərhələdə risk qrupu hesab edilmir.*

*6 aydan sonra tibbi cəhətdən qandakı anticisimlərin zəiflədiyi nəzərə alınaraq, vətəndaş vaksinasiya strategiyasında nəzərdə tutulan risk qrupuna aiddirsə, peyvənd oluna bilər.*

## FHN yataqxanadakı yanğınla bağlı məlumat yayıb



**Sumqayıt şəhərində məcburi köçkünlərin məskunlaşdığı dördmərtəbəli mansarda tipli yataqxana binasının ümumi sahəsi 500 kv.m olan mansardasında taxta konstruksiyalardan ibarət 1 otaq 15 kv.m sahədə yanıb.**

Fövqəladə Hallar Nazirliyindən Adalet.az-a verilən məlumata görə, yanğın yerinin kəşfiyyatı zamanı 1972-ci il təvəllüdlü Əhmədov Məzahir Nuşirəvan oğlunun yanmış meyiti yanğınsöndürənlər tərəfindən aşkar edilərək aidiyyəti üzrə təhvil verilib. Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələri tərəfindən həyata keçirilən təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğının yayılmasının qarşısı alınıb. Binanın qalan hissəsi yanğından mühafizə olunub. Yanğın söndürülüb. Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən təhqiqat aparılır.

## İran Rusiyaya nota verib

**Rəsmi Tehran Rusiya Xarici İşlər Nazirliyinə (XİN) etiraz notası göndərib. Bu barədə IRNA agentliyi məlumat verib.**

Səbəb Rusiya XİN-in ərəbdilli ”Twitter” səhifəsində Fars körfəzini ”Ərəbistan Körfəzi” adı ilə qeyd etməsidir. Rusiyanın diplomatik xidməti hadisə ilə bağlı hələ açıqlama verməyib.

## Hərbi geyimdə, özünü qazi kimi göstərib insanları aldadan şəxs saxlanıldı



**Bakıda özünü müharibə iştirakçısı kimi təqdim edərək dilənən şəxs yaxalanıb.**

Hadisə paytaxtın Yasamal rayonunda baş verib. Özünü Vətən müharibəsinin iştirakçısı və yaralı kimi təqdim edən şəxs hərbi forma geyinərək rayon ərazisində dilənçilik etməyə başlayıb. Yasamal rayon 26-cı polis bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat nəticəsində həmin şəxs saxlanılaraq polis bölməsinə gətirilib. Araşdırmalar zamanı məlum olub ki, saxlanılan şəxs Vətən müharibəsinin iştirakçısı deyil və heç bir xəsarəti yoxdur.

Faktla bağlı araşdırmalar aparılır.

## Türkiyə azərbaycanlı şəhid övladlarına təhsil təqaüdü ayıracaq



*Türkiyənin Xaricdəki Türklərlə və Yaxın İcmalarla İş İdarəsi Ermənistanla döyüş əməliyyatların nəticəsində şəhid olmuş azərbaycanlıların övladları üçün özəl təqaüdlər təklif edib. Adalet.az-ın məlumatına görə, bu barədə Türkiyə mətbuatı yazır. İdarənin rəhbəri Abdulla Eren bildirib ki, Türkiyə şəhid övladlarına təhsil vermək istəyir.*

*Bunun üçün Xaricdəki Türklərlə və Yaxın İcmalarla İş İdarəsi Türkiyədə araşdırma və dil tədrisi məqsədilə bu kateqoriyadan olan tələbə və aspirantlara xüsusi imkanlar təqdim edəcək:*

*"Bütün sahələrdə olduğu kimi Türkiyə təhsil sahəsində də azərbaycanlı qardaşlarını dəstəkləyir".*

## VAKSİN BAZARINDA "MÜHARİBƏ" BAŞLAYIB

Bax:səh-2

## Peskov: “Dünya avqustda adi həyat tərzinə qayıda bilər”



**”Yayda koronavirusa qarşı immuniteti formalaşan insanların sayı 60 faizə çatacaq”.**

TASS-ın məlumatına görə, bu sözləri Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. D.Peskov qeyd edib ki, artıq avqust ayında pandemiyadan əvvəlki həyat ritminə qayıtmaq olacaq.

”Alimlərin hesablamalarına görə, adi həyat ritminə qayıtmaq üçün məhz 60 faiz səviyyəsində dünya əhalisində immunitet olması vacibdir”, - deyə D.Peskov bildirib.

## Xankəndində Azərbaycan bayrağı asacağıq, amma səni asmayacağıq



**Camaat deyər ki, niyə? Çünki bizdə ölüm hökmü ləğv olunub. Amma Araiki ömürlük həbs gözləyir.**

**Həbsxanada onun başına nə gələcəyini isə həbsxanadakılar bilər. Ola bilsin ki, qırmızı şalvar geyindirsinlər.**

## GÜNÜN LƏTİFƏSİ

Bir oğlan oturur skamyada:

**- Ay Allah, indi mən neynəyəcəm.**

Dostu gəlir soruşur:

- De görək nolub?

**- Otur deyəcəm.**

Dostu oturub yenə soruşur, de görək nolub?

**- Skamyanı rəngləyiblər.**

# Prezident Baş Prokurorluğun yeni binasının açılışında



**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Baş Prokurorluğunun paytaxtın Binəqədi rayonu ərazisində yeni inzibati bina kompleksinin açılışında iştirak edib.**

Adalet.az xəbər verir ki, Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevə raport verdi.

Qeyd edək ki, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə dövlətimizin başçısının 2020-ci il 10 iyun tarixli Sərəncamına əsasən Baş Prokurorluğun yeni strukturu təsdiq edilib, yeni idarə və şöbələr, o cümlədən islahatların tərkib hissəsi kimi, kriminalistika və informatika idarəsi yaradılıb.

Yeni inzibati bina ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verən Baş prokuror Kamran Əliyev bildirdi ki, dörd korpusdan ibarət kompleksdə Baş Prokurorluğun altı idarəsi və Elm-Tədris Mərkəzi fəaliyyət göstərəcək. Kompleksdəki bütün otaqlar müasir informasiya-kommunikasiya qurğuları ilə təchiz olunub.

Yeni inzibati binada yaradılmış müasir şərait prokurorluq orqanları əməkdaşlarının daha səmərəli və məhsuldar fəaliyyətini təmin edəcək. Eyni zamanda, vətəndaş məmnunluğunun təmin olunması işi də yeni kompleksdə müvafiq standartlara və müasir formaya uyğunlaşdırılıb.

Diqqətə çatdırıldı ki, cinayət prosesi iştirakçılarının dindirilməsi üçün müasir tələblərə cavab verən 13 dindirmə otağında zəruri texniki vasitələr qoyulub. Eyni zamanda, cinayət prosessual qanunvericiliyin tələblərinə müvafiq olaraq, tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədilə tanınmanı vizual müşahidəni istisna edən şəraitdə aparmağa imkan verən istintaq otağı yaradılıb.

Kriminalistika otağı da ən müasir cihaz və avadanlıqla təmin olunub.

İnzibati binada üç iclas zalı və 320 nəfərlik konfrans zalı müxtəlif beynəlxalq tədbirlərin, treninq, seminar, mətbuat konfransları və təqdimatların keçirilməsinə imkan verəcək.

Prezident İlham Əliyev kompleksin inzibati binasında yaradılan və 44 günlük Vətən müharibəsinə həsr edilmiş tarixi-memorial qalereya ilə tanış oldu. Qalereyada Vətən müharibəsi dövründə Ermənistan ordusunun Gəncə, Tərtər, Bərdə şəhərlərində mülki əhaliyə və obyektlərə qarşı törətdiyi terror aktları ilə bağlı maddi sübutlar toplanıb.

Dövlətimizin başçısına səyyar kriminalistik laboratoriyaların quraşdırıldığı avtomobillər barədə də məlumat verildi.

Bildirildi ki, avtomobillərdə quraşdırılmış batareyaların köməyi ilə mühərriklər işə salınmadan 1,5-2 saat ərzində avtonom rejimdə hadisə yerini, eləcə də istintaq hərəkəti aparılan ərazini işıqlandırmaq mümkündür.

Müasir texnika və avadanlıqla təchiz edilən bu cür avtomobillər MDB məkanında yalnız Azərbaycandadır.

**Kompleksin ərazisində abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb. Qeyd edək ki, Prezident İlham Əliyevin fəal hüquq siyasətinin əsas məqsədi qanunun aliliyinin təmin olunmasıdır. Prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması bu istiqamətdə həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirir.**

# Yusif Axund-zadə "Şöhrət" ordeni ilə təltif edilib

**Prezident İlham Əliyev Y.Y.Axund-zadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamla Azərbaycanda musiqi sənətinin inkişafında xidmətlərinə görə Yusif Yevgenyeviç Axund-zadə "Şöhrət" ordeni ilə təltif edilib.

## *Azərbaycan radioları Dağlıq Qarabağ və ətraf ərazilərdə yayımlanacaq*

**Milli Televiziya və Radio Şurasının video formatda iclası keçirilib.**

İclasda işğaldan azad olunmuş ərazilərdə radio yayımın təşkili məsələləri müzakirə olunub.

İşğaldan azad olunmuş ərazilərdə yeni yayım tezliklərinin istifadəyə verilməsi ilə əlaqədar Şuşa şəhərində yerləşən Radio Televiziya Yayım Stansiyası (RTYS) vasitəsilə ümumölkə radio kanallarının ("Xəzər" radiosu, "Azad Azərbaycan" radiosu, "100.5 FM - Fərqli radio", "Avto FM" radiosu, "Araz" radiosu, "Space" radiosu, "Radio Antenn", "Media FM" radiosu) Dağlıq Qarabağ və ətraf ərazilərdə yayımının təşkil olunması barədə qərar qəbul edilib.

İclasda həmçinin, Dağlıq Qarabağ və ətraf ərazilər yeni regional radio kanalının açılması üçün 102,7 MHs işçi tezliyinə 10 fevral 2021-ci il tarixdən 12 mart 2021-ci il tarixədək müsabiqə elan edilib.

# FHN yaşayış kompleksində çoxsaylı nöqsanlar aşkarladı

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Nəsimi rayonu, V.Plotnikov və M.Qaşqay küçələrinin kəsişməsində inşa edilmiş yaşayış kompleksində plandankənar yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində çoxsaylı nöqsanların mövcud olduğu, aşkar edilmiş nöqsanların insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa təhlükə yaratdığı müəyyən edilib.**

FHN-in Mətbuat xidmətindən Adalet.az -a verilən məlumata görə, vətəndaşın şikayəti əsasında Xidmət tərəfindən 2 dekabr 2020-ci il tarixində sözügedən yaşayış kompleksində Ədliyyə Nazirliyinin rəsmi reyestrindən əldə edilmiş "Çıxarış" əsasında yanğın-texniki müayinə aparılıb və yaşayış kompleksinin zirzəmi mərtəbəsində yerləşən avtodayanacaq sahəsində xidmətlərin göstərilməsinin dayandırılması haqqında Qərar qəbul edilib. Lakin, adıçəkilən obyektin rəhbərliyi qəbul edilən Qərara məhəl qoymadan avtodayanacaq sahəsində xidmətlərin göstərilməsini davam etdirib və bununla bağlı inzibati qaydada tədbir görülüb. Ötən müddət ərzində əlavə




olaraq yaşayış binasının 1 və 2-ci mərtəbələrində normativ sənədlərlə reqlamentləşdirilən yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinə kobud surətdə əməl olunmadan ticarət fəaliyyətinə yol verib. Belə ki,

-lak, boya və digər asan alışan maddələrin saxlanılması və satışına yol verilib;

-layihədənkənar işlər aparılaraq ticarət sahələrinin biri-birindən ayrılması məqsədilə yanar materiallardan arakəsmələr quraşdırılıb, yanğın yükünün süni şəkildə artırılması ilə yanaşı, hadisə zamanı insanların təhlükəsiz və qısa müddət ərzində təxliyəsinə məhdudiyyət yaradılıb;

-avtomatik tüstü xaricetmə, yanğınxəbərverici siqnalizasiya və yanğınsöndürmə qurğuları quraşdırılmayıb;

-quraşdırılmış daxili yanğın kranlarının bir çoxu lülə və şlanqlarla dəstləşdirilməyib, nömrələnməsi və möhürlənməsi təmin edilməyib;

-baş verə biləcək yanğınların söndürülməsi üçün yanğın su hovuzu və ya hidrantlar nəzərdə tutulmayıb;

-normativ sənədlərin tələblərinə uyğun olaraq zəruri sayda odsöndürənlərlə təmin edilməyib;

elektrik təsərrüfatı "Elektrik Qurğularının Quraşdırılması Qaydaları"nın tələblərinə uyğun quraşdırılmayıb;

-həyətyanı sahənin təyin olunmayan yerlərində nəqliyyat vasitələrinin park edilməsi səbəbindən yanğın texnikalarının binaya yaxınlaşması məhdudlaşdırılıb.

**Sadalanan yanğına qarşı çatışmazlıqlarla bağlı obyektin məsul şəxsləri barəsində inzibati xəta haqqında protokollar tərtib edilib və yanğının baş vermə riskinin və nəticələrinin minimuma endirilməsi məqsədilə müvafiq qanunvericiliyin tələblərini rəhbər tutaraq müraciətimiz əsasında qeyri-yaşayış sahəsinin elektrik enerjisi təchizatı 4 fevral 2021-ci il tarixindən dayandırılıb.**

# Vasif Talıbov onları təltif etdi



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov fevralın 8-də Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, sərəncamla aşağıdakı şəxslər təltif olunub:

***Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətlərinə görə:***

**Əliyeva Səbahət Əli qızı**

**Nəcəfova Tərlan Məhəmməd qızı**

**Zeynalova İradə İsmayıl qızı - "Əməkdar müəllim" fəxri adı ilə;**

**Tarverdiyev Məhərrəm Novruz oğlu - "Əməkdar həkim" fəxri adı ilə;**

**Novruzov Elxan Yunis oğlu - " Əməkdar dövlət qulluqçusu" fəxri adı ilə;**

**Xıdırov Əhliman Mehman oğlu - "Əməkdar hüquqşünas" fəxri adı ilə;**

**Rzayeva Xoşqədəm Hüseyn qızı - "Əməkdar tibb işçisi" fəxri adı ilə;**

**Hüseynova Mehparə Səfər qızı - "Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adı ilə;**

**Mehdiyev Samir Əyyub oğlu - "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilsinlər".**

Qeyd edək ki, fevralın 9-u Naxçıvan Muxtar Respublikasının yaradılmasının 97-ci ildönümüdür.

# Yol polisi sürücülərə müraciət edib

**Daxili İşlər Nazirliyi (DİN) Baş Dövlət Yol Polisi İdarəsi ölkədə xüsusi karantin rejiminin yumşaldılması ilə bağlı sürücülərə müraciət edib.**

İdarənin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovnik-leytenatı Namidan Piriyev bildirib ki, son günlər koronavirus (COVID-19) infeksiyasına yoluxan insanların sayının azalması və respublika ərazisində tətbiq edilmiş xüsusi karantin rejiminin yumşaldılması ötən günlərlə müqayisədə yollarda hərəkətdə olan nəqliyyat vasi-




tələrinin, eyni zamanda sürücülər tərəfindən törədilən yol hərəkəti qayda pozuntularının sayının artmasına təsir edib:

"Belə ki, respublika ərazisində gün ərzində ümumilikdə 11-12 min fakt (foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrlə elektron formada qeydə alınan 6-7 min fakt) yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətanın aşkar edilməsi, dövlət yol polisi əməkdaşları tərəfindən hərəkətin təhlükəsizliyinin təmin olunması üçün qabaqlayıcı və profilaktik tədbirlərin keçirilməsinə baxmayaraq ağır yol-nəqliyyat hadisələrinin də baş vermə riskini artırır.

Qeyd olunanları nəzərə alaraq, özlərinin və digər hərəkət iştirakçılarının həyat və sağlamlıqlarının təhlükə altında qalmaması üçün, Baş DYP İdarəsi bir daha bütün sürücülərdən intizamlı olmağı, yol hərəkəti qaydalarına ciddi riayət etməyi xahiş edir".

# Türkiyədə onlayn satış aksiyasından əldə edilən vəsait "YAŞAT"a ianə edildi




Türkiyədə iki qardaş ölkənin rəssam və heykəltəraşlarının əsərlərindən ibarət "Bir millət, iki dövlət" şüarı altında onlayn satış aksiyası keçirilib.

Adalet.az xəbər verir ki, kampaniya Türkiyənin Yəditəpə Universitetinin Gözəl Sənətlər fakültəsinin müəllimi, Azərbaycanın Əməkdar rəssamı, professor Teymur Rzayev və Bilecik Şeyx Edebali Universitetinin Gözəl Sənətlər fakültəsinin müəllimi Elçin Mustafayevin təşəbbüsü ilə reallaşıb.

***Aksiyadan əldə edilən 90 min tük lirəsi tarixi Azərbaycan torpağı olan Qarabağın erməni işğalından azad edilməsi uğrunda şəhid olan və yaralanan hərbçilərimizin ailələrinə verilməsi məqsədilə "YAŞAT" Fonduna ianə edilib.***

Yardımlaşma kampaniyası haqqında məlumat verən Teymur Rzayev deyib: "Bu aksiyanın keçirməmizdə əsas məqsəd nə qədər əsərin satılacağı və ya əldə edilən gəlir deyil. Məqsədimiz iki qardaş ölkə rəssamlarının Azərbaycanın haqlı davasında yanında olduğunu və həmrəyliyini nümayiş etdirməkdir. Azərbaycanın nə qədər güclü bir dövlət olduğu və hər bir vətəndaşının qayğısına qaldığı bütün dünyaya bəllidir. Buna baxmayaraq hər kəs vətəni, torpağı üçün əlindən gələni etməyə borcludur. Bu, maddi və ya mənəvi dəstək ola bilər. Əsas olan həmrəyliyimiz, birliyimizdir.

Bizim təşkil etdiyimiz bu kampaniyada Azərbaycanla yanaşı, Türkiyənin də korifey fırça ustalarının iştirak etməsi qürurvericidir. Hesab edirəm ki, Azərbaycan və Türkiyə rəssamlarının bu həmrəyliyi bütün incəsənət aləmi üçün nümunədir".

Yardımlaşma kampaniyasına rəngkarlıq, qrafika, heykəltəraşlıq, keramika üzrə 86 mütəxəssisin ümumilikdə 140 əsəri təqdim edilib.

**Aksiyada Azərbaycanın və Türkiyənin rəsm sənətinin dünyaca məşhur adları Özdemir Altan, Devrim Erbil, Yalçın Gökçebağ, Aydın Ayan, Yalçın Karayağız, Mahir Güven, Rəsul Aytemür, Gürbüz Doğan Ekşioğlu, Gülveli Kaya,Zahit Büyükişleyen, Teymur Rzayev, Rəhim Məmmədov, Faiq Ağayev, Rasim Nazirov, Ziyad Sultanov, Məzahir Afşar, Səid Rüstem, Lətafət Məmmədova, İlham Ənvəroğlu, Şahin Məmmədov, Assim Rəsuloğlu və digərləri iştirak ediblər.**

# VAKSİN BAZARINDA "MÜHARİBƏ" BAŞLAYIB

## Trilyonlarla dollar uğrunda qızğın mübarizə gedir

**Koronavorus pandemiyası başlayandan, onun təbii , yaxud süni yolla yaradılması ətrafında müzakirələr davam etməkdədi. Ümumdünya Səhiyyə Təşkilatının da bu qalmaqala aktiv qoşulması vəziyyəti daha da gərginləşdirir. Pandemiya elan edildikdən dərhal sonra, kütləvi vaksinləşmənin qaçılmaz olduğunu elan edən, "Dərin dövlət", "Dünya hökuməti" və s. kimi dünyaya qələmmə verilən Rokfellərin, Roşldlərin, Hannoverlərin təmsilçilərindən sayılan Bill Qeytsin, mütamadi çıxışları, virusun gizli bioloji labaratoriyalarda hazırlanması şübhələrini daha da artıtırdı.**




Virusologiya üzrə bir çox mütəxəsislər bu virusun bir qrup işbazlar tərəfindən məqsədli şəkildə yaradıldığını iddia edirlər. Bəzi mütəxəsislər bunun yer üzündə insan kütləsinin sayının azaldılması, bəziləri isə dünya farmalogiya istehsalçıları vasitəsi ilə trilyonlarla dollar qazanc əldə etmək məqsədi ilə edildiyini bildirirlər. Əslində ötən bir il ərzində pandemiya ətrafında "aparılan" işlər göstərir ki, hər iki tərəfin fikirləri həqiqətə yaxındır.

Pandemiya dövrünün bir ili ərzində koronavirusdan dünyasını dəyişənlərin sayı 3 milyona yaxınlaşır. Bu say yer kürəsində insan sayının azalmasına heç bir halda təsir edə bilməz. Amma vaksinasiyanın trilyonlarla dollar qazanmağa imkan yaradacağı artıq heç kimdə şübhə doğurmur.

Artıq vaksinasiya bazarında "soyuq müharibə" başlayıb. Bildiyimiz kimi pandemiya elan edildikdən dərhal sonra, dünyanın aparıcı dövlətləri - ABŞ, Çin, Rusiya, Böyük Britaniya, Almaniya və s.-nin iri farmalogiya şirkətləri koronavirus vaksinləri hazırlamaq üçün əl-ayağa düşdülər. Bu sahə üzrə mütəxəsislər vaksinin hazırlanması üçün uzun illərin lazım gələcəyini bildirləsələr də, artıq bir çox ölkələr, sovetlərin vaxtında deyldiyi kimi, "beşilliyi bir ildə" yerinə yetirdilər. Yəni müxtəlif adda vaksinlər artıq dünya bazarına çıxarılıb.

***Müxtəlif adda vaksinlər artıq dünya bazarına çıxatılıb. İdi qalıb kimin daha çox "realizə" etməsi məsələsi. Bax bu məsələdə başlayan "müharibə" idi diqqət mərkəzindədi.***

The New York Times ABŞ hökumətindəki mənbələrinə əsasən yaxır ki, Dövlət Departamentinin nümayəndələri bildirirlər ki, Rusiyanın himayə etdikləri KİV-lər koronavirusa qarşı amerikan şirkətlərinin hazırladıqları Pfizer və Moderna vaksinlərinin əleyhinə kompaniya aparmağa başlayıb. Dərginin yaydığı məlumata görə bunlar əvvəllərdə "ABŞ-da keçirilən seçkilər barədə dezingormasiya yayan KİV-lərdi". The New York Times yazır ki, bu kütləvi informasiya vasitələri, qarşılarına yeni məqsəd qoyublar. İspandilli ölkələri inandırmağa çalışırlar ki, rusların hazırladıqları vaksinlər, amerikalı rəqiblərininin hazırladıqları vaksinlərdən daha effektlidir.

***Dərginin məlumatlarına görə, Rusiya şirkətləri diqqətlərini əsasən Latın Amerikası dövlətlərinə yönəldiblər. "Sputnik-V" ətrafında təbliğat 2020-ci ilin avqust ayından başlayıb. İlkin olaraq əkstəbliğat İsveç-Britaniyanın Astra Zeneca şirkətinin hazırladığı vaksinlərə yönəlib: "Rusiya başqa vaksin hazırlayan şirkətlərə qarşı kompaniyanı KİV-lərdən əlavə Facebook, Twitter və digər sosial şəbəkələr vasitəsi ilə də apararaq, təhlükəli oyuna giribblər"- deyə The New York Times yazır.***

Lakin dərgi qeyd edir ki, dekabr ayında "Astra Zeneca" şirkəti Rusiya ilə "Sputnik-V" vaksininin birgə hazırlanması ilə bağlı müqavilə bağladıqdan sonra kremlpərəst kivlər bu şirkətin digər məhsullarına qaşı pozitiv rəylər yazmağa başlayıb. ABŞ dövlət departamentinin mətbuat xidmətindən The New York Times-ə bildirilib ki, Rusiyanın bu çirkin təbliğatı "pandemiyanın yox olması üçün aparılan qlobal kollektiv mübarizəni heçə endirir".

Trolyonlar uğrunda mübarizəyə Avropa İttifaqı da qoşulub. Onlarda Rusiyanı COVİD-19 "triumfal" vaksin bazarında dezinformadiya yaymaqda günahlandırırlar.

Görünən odur ki, pamdemiya, vaksin "oyunlarında" trilyonlarla dollar uğrunda mübarizədə Rusiya ABŞ-ın və Qərbin aparıcı dövlətlərinin qarşısına çıxıb və bu "müharbədə öz payını" almaqda israrlıdı.

Payda az deyil ey. Mütəxəsislərin hesablamalarına görə ildə 6-7 trilyon dollar cıvarındadır. Rusiyanın "Sputnik-V" vaksini Rusiya ilə yanaşı, Belarusiya, Argentina, Boliviya, Əlcəzair, Hindistan, Cənubi Koreya, Venesuela və Fələstin kimi ölkələrdə artıq qəbul edilib və kütləvi vaksinləşmə apatılır. Deməli bazarın bir hissəsinə nəzarət Kremlin əlindədi. Təbii ki, bu Rusiyanın iqtisadiyyatını çökdürməyə çalışan ABŞ-ın maraqlarına uyğun gəlmir.

**ÜST-ə bu trilyonlardan nə qədər çatacağı məlum olmasada, hər bir halda alacaqlarını bilirlər. Ona görə də aparıcı dövlətlərin "vaksin uğrunda soyuq müharibəsinə" qarışmırlar.**

**Rüstəm HACIYEV**

## *Bill Qeyts bəşəriyyəti yeni qlobal təhlükə gözlədiyini bildirib*



***"Microsoft"un banisi, Amerika sahibkarı Bill Qeytsin bəşəriyyəti gözləyən yeni qlobal təhlükənin mövcudluğu barədə xəbər verib.***

***Qeytsin sözlərinə görə, bəşəriyyət yeni təbii kataklizmlər gözləyir.***

***"Koronavirus pandemiyası zamanı olduğu kimi, çoxsaylı insan qurbanları olacaq", - iş adamı deyib.***

***O, iqlim dəyişikliyini və bioterrorizmi böyük təhlükə adlandırıb.***

***"Bütün bəşəriyyətə geniş ziyan vurmaq istəyən hər kəs yeni bir ölümcül virus yarada bilər", - "Microsoft"un qurucusu bildirib.***

***Daha əvvəl Bill Qeyts COVID-19 pandemiyasında iştirakını təkzib edib. Sosial şəbəkələrdə və onlayn mediada onun pandemiyanın başlanğıcında iştirakı haqqında iddialar irəli sürülüb. Lakin Bill Qeyts bunları təkzib edib.***

***Sahibkar bildirib ki, pandemiyada əli olması barədə fikirlər axmaqlıqdır.***

***MEHRİBAN***

# Redaksiyaya məktub

**Hörmətli Aqil müəllim!**

50 illik tanışlığımızda həmişə bir-birimizə hörmətlə yanaşmış,xoş günümüzə sevinmiş,kədərimizə şərik olmuşuq.Xatirimdədir, 1995-ci ildə ilk dəfə həcc ziyarətinə gedəndə, necə deyərlər, "yaxşı yol"məclisində mənə xeyir-dua verənlər arasında Sabir Rüstəmxanlı,Rasim Balayevlə birlikdə Siz də var idiniz.

Tələbəlik illərindən bu günə qədər bütün yazılarınızı oxuyuram.Heç nə yazmasaydınız belə, "Dolu"romanı ilə Azərbaycan ədəbiyyatında qalacaqsınız.

Yaxınlarda "Ədalət"qəzetində "Anro Babacanyan və Polad Bülbüloğlu" başlıqlı yazınızı oxudum.Yazıda bir çox mübahisəli məqamlar olsa da, əslində çox ciddi məsələyə toxunursunuz.Haqlı olaraq Poladı,Bülbülü söyənlərə kəskin etirazınızı bildirirsiniz.

Ola bilər ki,Polad Bülbüloğlu səfir kimi siyasi səhvə yol verib və Prezidentin köməkçisi də buna münasibət bildirib.Axı,Polad Azərbaycan tarixində siyasi xadim kimi deyil,böyük müğənni və bəstəçi kimi qalacaq. Azərbaycanın, hətta bütün şərqin ilk vokalçısı dahi Bülbülün günahı nədir ki,Poladın "siyasi səhv"inə görə söyülür.Adlarını qeyd etdiyiniz Bülbül,Polad Bülbüloğlu, Müslüm Maqomayev,Rəşid Behbudov,Zeynəb Xanlarova xalqımızın yaddaşında əbədi qalacaq tarixi simalardır.

Yazını oxuyarkən xəyal məni uzaqlara apardı.Yadıma 48 il əvvəl baş vermiş bir hadisə düşdü.

Tələbəlik illərində 5-6 nəfər dostlarımla "Gənclik" restoranında şam edirdik.Musiqi sifarişi üstündə qonşu masada oturmuş erməni uşaqları ilə mübahisəmiz düşdü.Ermənilərdən biri- mən sizin Müslüm Maqomayevinizin...-deyə, səsini qaldırdı.Bizim uşaqlar da dərhal- mən sizin Anro Babacanyanınızın... cavabını verdilər.Adi mübahisə hər iki tərəfin valideyinləri də işə qarışdıqdan sonra milis şöbəsində yekunlaşdı... Müslümə söyüş söyülməsinə görə institutdan qovulmaq, hətta cinayət məsuliyyətinə cəlb edilmək təhlükəsi ilə üzləşən,xəsarət alıb baş yaran gəncliyə nə oldu ki,40-50 ildən sonra Polad kimi ,Bülbül kimi korifey sənətkarlarımız söyüldü.

Əcəba, xalqımız milli təəssübkeşlik hissinimi itirib?Əsla! 27 sentyabrda Prezidentin bir çağırışı ilə yumruq kimi birləşib, əsl vətən müharibəsi aparıb 44 gündə qələbə çalan xalqımız bir daha böyüklüyünü göstərdi.

Bizim gənclik illərimizə təsadüf edən "Soyuz-Apollon" kosmik gəmiləri birləşəndə fəxrlə deyirdik ki,Amerikada "Apollon"-un ,SSRİ-də "Soyuz"-un rəhbəri azərbaycanlıdır.Bəzən özümüz inanmasaq da, yeri gəldi-gəlmədi deyirdik,xalqımızın böyüklüyünü təbliğ edirdik.

Tarix üçün qısa zaman kəsiyində nə baş verib ki,adi sözlərimiz,cüzi səhvlərimiz böyüdülərək geniş müzakirə mövzusuna çevrilir.

Bunun səbəbini araşdırdım və... tapdım.

Mən yazılarımın birində demişdim ki, tarixi şəxsiyyətlərimizin xatirəsi bizim üçün dövlət atributları qədər əziz olmalı və qorunmalıdır. Günümüzdə yanında oturmuş korrupsiyonerlərə,qeyri-qanuni üsullarla milyonlar yığan məmurlara bir kəlmə söz deyə bilməyən bəzi səlahiyyət sahibləri və alim adı daşıyanlar 100 il,500 il,1000 il əvvəl yaşamış siyasi xadimlərimizin,şairlərimizin,elm adamlarımızın qabırğasına döşəyir,kölgəsinə güllə atırlar.

Bu yaxınlarada 100 illik yubileyi qeyd olunan XX-və XXI əsrin ən böyük alimlərindən birini (Lütfüzadə) hansısa məmur "fındıqbaş kişi"adlandırırsa,mandat sahibi və partiya həmsədri olan bir başqası "Hitlerə minnətdar olmalıyıq ki,Məmməd Əmin Rəsulzadəyə qulaq asmadı yoxsa indi burada ermənilər yaşayardı"deyirsə,(Son 75 ildə Hitlerə minnətdarlıq edən yeganə adam kimi Qinnessin rekordlar kitabına düşə bilər.)bütün dünya xalqları mərkəzləşmiş dövlət quran siyasi xadimləri ilə fəxr etdiyi halda-(Rusiyada I Pyotr,Almaniyada dəmir Bismark,Fransada XIV Lyudovik və. s.) başqa mandat sahibi və partiya sədri-Azərbaycan ərazisində ilk mərkəzləşmiş dövlət quran,K.Marksın təbirincə desək 14 ildə 14 ölkə fəth edib, əsl fateh olduğunu sübut edən,orta əsrlərin İskəndəri adlandırılan,türk dilini dövlət dili elan edən,şair kimi adı Nəsimi ,Füzuli kimi korifeylərlə bir çəkilən (yeganə hökmdardır ki,həm də poeziyada yüksək zirvələr fəth etmişdir) şanımız,şöhrətimiz olan Şah İsmayılı bu günkü bəlalarımızın baisi hesab edirsə,50 milyonluq azərbaycanlıların fəxri olub, milli oyanışımızda həmişə istinadımız olan Babəki-düşmən tərəfin qərəzli yazısına əsaslanaraq əxlaqsızlıqda,arvadları ümumiləşdirməkdə təqsirləndirirsə,bir başqa mandat sahibi kənar yerdə yaşayan soydaşlarımıza "otxod"deyirsə,Nadir şah,N.Nərimanov və M.Bağırov haqqında yerindən qalxan əsassız ittihamalr irəli sürürsə və bu hərəkətlər cəzasız qalırsa Polad Bülbüloğlunun haqqında deyilənlərə nə üçün təəccüblənirsiniz?

Bir xalqı pisləmək üçün, onun tarixi şəxsiyyətlərini ləkələmək ən yaxşı üsuldur.Hərdən adama elə gəlir ki, sanki bu adamların hamısının ən birinci, ən ümdə, müqəddəs vəzifələri hökuməti, məddahlıq səviyyəsinə qədər tərifləmək və əvəzində az qala bütün problemlərdə xalqı günahlandırmaq, hətta aşağılamaqdır. Ona görə də sosial şəbəkələrdə nifrət dolu yazılar çoxluq təşkil edir,insanlar sanki heyif çıxırlar.(Baxsın özündən böyük, öz qoçu qardaşına M.Ə. Sabir)

***P.S.* Hörmətli Aqil müəllim!**

***Yazıda ermənilərin özlərini söymədiklərini iddia edirsiniz.***

***Bir hadisəni yadınıza salmaq istəyirəm. Milli qəhrəmanımız Əlif Hacıyevin komendant olduğu Xocalı aeroportunun rəisi erməni qadın idi.Bu qadın vəzifəsini vicdanla yerinə yetirir, milliyətindən asılı olmayaraq, hamıdan qaydalara əməl etməsini tələb edir, "saqqalıları" aeroportun ərazisinə buraxmırdı.Bir gecə ermənilər həmin qadının evinə tank vuran qumbara ataraq, iki azyaşlı uşağı və əri ilə birlikdə öldürdülər,evini də yandırdılar.***

***Fürsətdən istifadə edərək vaxtilə ermənilərin,günümüzdə bəzi "başbilənlərimizin" ayrı-ayrı vaxtlarda tarixi şəxsiyyətlərimiz barədə dediklərinə qısa tezislər şəklində cavab vermək istəyirəm.***

*(Ardı var)*

**Ələmdar Məmmədov**

# Sərhəddə əməliyyat: 3 nəfər saxlanıldı, biri qaçdı



*Dövlət Sərhəd Xidməti tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir.*

*Dövlət Sərhəd Xidmətinin mətbuat xidmətindən Adalet.az -a verilən məlumata görə, fevralın 7-də DSX-nin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonunun Abbasalı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində sərhəd naryadı tərəfindən sərhədboyu zolaqda 4 nəfər naməlum şəxsin hərəkəti müşahidə olunub. Sərhəd naryadı tərəfindən onlara "Dayan" komandası verilmiş, sərhəd pozucuları əmrə tabe olmayaraq hadisə yerindən qaçıblar.*

*Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb, sərhəd naryadları tərəfindən qaçaqmalçıların təqibi və hadisə yerinin axtarışı həyata keçirilib.*

*Əraziyə baxış zamanı 4 ədəd qara rəngli kisədə təxmini ümumi çəkisi 73 kiloqram olan narkotik vasitələrə və psixotrop preparatlara oxşar maddələr aşkar olunaraq götürülüb.*

*Sərhəd pozucularından biri - Yardımlı rayon sakini 1991-ci il təvəllüdlü Heydərli Orxan Nizami oğlu sərhəd naryadı tərəfindən yaxalanıb, digər 3 nəfər ərazinin mürəkkəb dağlıq və meşə relyefli olmasından istifadə edərək hadisə yerindən uzaqlaşıb.*

*Sərhəd pozucularının şəxsiyyətləri dərhal müəyyənləşdirilib, Yardımlı rayonunun polis şöbəsinin əməkdaşları ilə birlikdə həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayon sakinləri - 1991-ci il təvəllüdlü Sultanov Eldəniz Arzuman oğlunun və 1996-cı il təvəllüdlü Sultanov Orxan Ənvər oğlunun olduqları yer müəyyən edilərək saxlanılıb.*

*Saxlanılmış şəxslərin sərhəd naryadlarının təqibindən yayınmaq üçün yüksək qayalıqdan tullanmaları nəticəsində yüngül bədən xəsarətləri almaları məlum olub. Digər sərhəd pozucusunun axtarışı üzrə tədbirlər həyata keçirilir.*

*Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.*

# Baş Narkotiklərlə Mübarizə İdarəsi əməliyyat keçirdi, heroin alverçiləri yaxalandı





*Baş Narkotiklərlə Mübarizə İdarəsi narkotik alverçilərinə qarşı növbəti əməliyyatlar keçirib.*

*Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, idarənin Qərb Bölgəsində Regional Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında birgə keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş K.Kazımov Qaradağ rayonu ərazisində saxlanılıb.*

*Şəxsi axtarış zamanı ondan metamfetamin və heroin aşkar edilib.*

*Davam etdirilən tədbirlərlə onun idarə etdiyi "Mercedes" markalı avtomobilə baxış zamanı oradan 1 kiloqram 529 qrama yaxın heroin və 241 qramdan artıq metamfetamin götürülüb. İdarə əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri digər əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Xırdalan şəhər sakini, əvvəllər məhkum olunmuş E.Hüseynov Suraxanı rayonu ərazisində saxlanılıb. Şəxsi axtarış zamanı ondan 1 kiloqramdan artıq heroin, 495 qram metamfetamin və 1 ədəd elektron tərəzi aşkar edilərək götürülüb.*

*İdarə əməkdaşlarının daha bir əməliyyatı nəticəsində isə narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakinləri O.İsabəyliyev və əvvəllər məhkum olunmuş V.Əliyev Sabunçu rayonu ərazisində saxlanılıb. Şəxsi axtarış zamanı onlardan ümumilikdə 5 kiloqram 510 qram heroin aşkar edilərək götürülüb.*

*Orxan Safarri*



# Qlobal istiləşmə fonunda koronavirus

**Gözümü açandan eşitdiyim coğrafi məsələlər içində hələ də eşitməyə davam etdiyim bir şey var;**

**Qlobal istiləşmə...**

**Nədənsə, hər il müəyyən vaxta bu söhbət yenidən qızışmağa başlayır, qlobal istiləşmənin astanasında olduğumuzu deyirlər. Mən universitetə hazırlaşanda coğrafiya müəllimim də deyirdi bunu. Hələ də deyir. Amma bu istiləşmə nədirsə, gəlmir. Nədir qlobal istiləşmə? Nəticələri nə olar? Azca coğrafi bilikləri olan adamlar bilər. Qlobal istiləşmə ilk olaraq iqlim dəyişkənliyi, heyvan növlərinin nəslinin kəsilməsi, ozon qatının deşilməsi, havanın çirklənməsi hazırda ətraf mühitin başlıca problemləridir. Təbii. Təbiət bu cür cuşa gəlsə, biz insanlar üçün də yaxşı olmaz. Amma dünyada gedən son proseslərlə sanki bunun bir əlaqəsi varmış kimi durur. Bəli. Söhbət koronovirusdan gedir. Virus fonunda dünyanın "həbs" edilməsi, təbiətin bir az da azadlığa çıxmasına səbəb oldu. Dünya üzrə hava reysləri dayandı, fabrik-zavodlarin fəaliyyəti səngidi, maşınlar azaldı və.s. Nəticədə nə oldu? Coğrafi biliklərinizi işə salın. Ozon qatının deşilmə təhlükəsi azaldı, hava təmizləndi, təbiətə yeni nəfəs gəldi. Kəsilən hər zəhərli qaz təbiətə ruh verdi. Hava siklonları az da olsa özünə gəldi. Bəli. İllərdir qar yağmayan Avropaya da qar yağdı. Hətta illərdir biz də görmədiyimiz qarı cüzi də olsa daddıq.**

**Bəs, qlobal istiləşmə? Alimlər nə qədər reallıq kimi görsələr də bunu, deyəsən, tam olaraq elə deyil. Ən azından proseslər hələki o yöndə getmir. Hələ hələ bu proseslərin içində daha da qarşısı alınır. Əgər olacaqsa. Bəlkə də elə qlobal istiləşmə in qarşısı bu cür alınacaq. Artıq bir ildir ki, nizama düşən səma əsl üzünü yenidən göstərməyə başlayır. Ən azından havaya buraxılan zərərli qazlar bunun qarşısını o ki, var alır. Çünki qlobal istiləşmənin əsas səbəbi yerin orta səthi temperaturunun zərərli qazlar səbəbindən yüksəlməsidir. Belə olan halda karbon dioksid, metan kimi qazlar istiliyi çəkərək özündə saxlayır və torpaqdan çıxmasına imkan vermir. Necə ki, statistika da bunu göstərirdi. Ötən əsr ərzində yerdə temperaturun 0,8 dərəcə yüksəldiyi açıqlanmışdı. Temperatur artımı əsasən əsrin son 25 ilinin payına düşüb. Səbəb nə idi? Dediyimiz kimi, sənaye sahəsinin sürətli inkişafı, təbiətin çirkləndirilməsi,(qazlar vasitəsi, tullantılar) meşələrin qırılması və.s**

**Yəqin ki, yeni statistika dünyanın mövcud durumuna görə belə olmayacaq.**

**Qlobal istiləşmə fonunda statistikalar çoxdur. Çoxunu da eşitmişik. Məsələn, 2040-ci ilədək Arktik ərazilərdə buzların tamamilə əriməsi məsələsi. Açığı, bu, bir qədər reallıqdan uzaq görsənir. Yox, belə olsa, onda dünyanın başı sağ olsun.**

**Amma bu, buzlaqlar ərimədi də deyil. Məsələn, 1910-cu ildə 150 buzlağa malik olan "Montana" milli buz parkında hazırda cəmi 25 buzlaq var. Ciddi problemdir, virus haqqı.**

**Qlobal istiləşməni göstərən digər məsələlərə həm də bu daxildir; Ekstremal hava dəyişiklikləri- meşə yanğınları, quraqlıq, tropik qasırğalar... Mövcud vəziyyət bunu bir az da azaltdı. Son illər cəmi bir meşə yanğını gördük iri həcmli.**

**Qlobal istiləşmə haqqında deyilmiş ən ciddi və təhlükəli iddialardan biri də 2100-cü ildən orta temperatur göstəricilərinin 5,8 dərəcə yüksələcəyi proqnozudur. Kim o dövrdə yaşayacaqsa, belə olsa, onlara görə çox üzülürəm. Çünki kütləvi qida, su qıtlığı dünyanı lərzəyə sala bilər. Çalışaq, təbiət ana ilə yaxşı davranaq. Yoxsa, bu, heç də yaxşı nəticələnməyəcək.**

**Bəli. Virusun fonunda Qlobal istiləşmə qaldı yana-yana. Dünya yeni dövrə qədəm qoydu. Virusun dünya üçün nəticələri haqqında çox yazılıb, çox danışılıb. Eyni şeyləri təkrarlamağa nə ehtiyac? Bizim üçün əsas məsələ istiləşmədir, o da artıq həllini tapdı. Birbaşa olaraq bu söhbətlər yığışıldı.**

**Həəə. Bu da var idi axı. Qlobal istiləşmə davam etsə, etsəydi, meydana olduqca təhlükəli mikrob və viruslar gələcəkdi. Deyəsən, biz dünyanın başını coronovirusla "bağladıq".**

**Yəqin ki, çox keçməz, bu virus da çəkilib gedər, qlobal istiləşmə hazırkı kimi səngiyər, insanlar bunların heç birindən təşvişə salınmaz, təbiət anadakı heç də. Vaxtı vaxtında qarımızı, yağışımızı verər. Necə ki, bu düzən yerinə qayıdıb. Bizdən aldığı çox şey olsa da, azı bunu qaytardığına görə virusa həm də təşəkkür düşür.**

# Qisası alınmış qəhrəman: Mübariz İbrahimov "post"u

**Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik.**

Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür.

Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".

Bu məktub Azərbaycanın Milli Qəhrəmanı, gizir Mübariz İbrahimovun valideynləri, cəbhə yoldaşları və xalqı ilə son təması, vida məktubudur. Bu gün igidimizin doğum günü olduğu üçün kiçik bir yazı ilə o böyük OĞULun qarşısında baş əyməyi özümə borc bildim.

Mübariz 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. 1994-2005-ci illərdə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbində təhsil alıb. Orta təhsilini başa vurandan sonra həqiqi hərbi xidmətə çağrılıb. Əsgəri xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı bölüyündə keçirib. Həqiqi hərbi xidmətdən 2007-ci ildə çavuş rütbəsində tərxis olunan M.İbrahimov bir müddət mülki işlərdə çalışıb. 2009-cu ilin avqust ayında yenidən hərbiyə qayıdıb və gizir rütbəsində xidmət etməyə başlayıb. Bir müddət sonra isə öz arzusu ilə Tərtər rayonundakı



"N" saylı hərbi hissədə, daha dəqiq desək, cəbhə bölgəsində xidmət etməyə başlayıb. 19 iyun 2010-cu ildə yuxarıda qeyd edilən vida məktubunu yazaraq, gecə saat 23:30 radələrində düşündüyü əməliyyatı həyata keçirib.

Tərtər istiqamətində düşmənin işğalı altında olan Çaylı kəndindəki erməni qərargahına girmək üçün bir kilometrlik minalanmış məsafəni tək keçib. Əsl bir cəngavər kimi mənfur düşmənin ağlasığmaz sayda əsgər və zabitini elə birinci həmlədəcə məhv edib.

Düşmənin öz silahlarını özünə qarşı istifadə edərək, təkbaşına 5 saat bir orduyla döyüşüb. Ermənistan Silahlı Qüvvələrini ağır itkilərə məruz qoyub, onların zəif cinahlarını üzə çıxarıb. Ermənilər əvvəlcə elə zənn ediblər ki, onlara qarşı Azərbaycan ordusu hücuma keçib. Gecənin qaranlığında çaş-baş qalan düşmən əlavə qüvvələrini də köməyə çağırıb. Gizir M.İbrahimov səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olub. Mübariz neçə erməni öldürüb vacib deyil. Ən vacibi odur ki, o həyatını verib, Azərbaycanın ölmüş inamını diriltdi.

Mübarizdə olan Vətən, torpaq sevgisi, vətənpərvərlik ruhu bununla da onu şəhidlik zirvəsinə ucaldıb. O, öz şərəfli ölümü ilə, qəhrəmanlığı ilə Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya sübut edib.

Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2010-cu il tarixli Sərəncamı ilə M.İbrahimova Azərbaycanın Milli Qəhrəmanı adı verilib. Ömrünün 22-ci baharında şəhidlik zirvəsinə ucalan gizirə bu ad Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə verilib.

Son olaraq: Qeyd edək ki, Müdafiə Nazirliyinin oktyabrın 4-də yaydığı məlumata görə, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb. Azərbaycan Bayrağını posta Azərbaycan Silahlı Qüvvələrinin mayoru Rauf Musayev sancıb.

**Azərbaycan Ordusu sənin qisasını aldı, Qardaşım!**

**Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik!**

**Əntiqə Rəşid**

# Toyların keçirilməsinə bu formada icazə verilə bilər

**Sevindirici haldır ki, ölkəmizdə koronavirusa qarşı atılan ardıcıl addımlar öz müsbət nəticələrini verməkdədir, virusa yoluxmalarda əhəmiyyətli dərəcədə azalmaya nail olunub. Məlumdur ki, azalmanı nəzərə alaraq Operativ Qərargah ölkədə sərt karantin rejminin tədricən yumşaldılmasına qərar verib, bir çox sahələrdə fəaliyyətin karantin qaydalarına əməl olunmaqla bərpasına icazə verilib.**



Lakin bir sıra kütləvi tədbirlərin keçirilməsi ilə bağlı qadağalar hələ də qalmaqdadır. Əlbəttə ki, bu tədbirlərdən biri cəmiyyətin daha çox marağında olduğu toy mərasimləridir. Ölkədə virusa qarşı vaksinasiyanın başlanması toyların keçirilməsinə icazə veriləcəyi ehtimallarını artırıb.

Məsələ ilə bağlı Trend-ə açıqlama verən Milli Məclisin deputatı Afət Həsənova ilk öncə virusa qarşı əldə edilən uğurları yüksək qiymətləndirib. O qeyd edib ki, virusun yayıldığı ilk gündən ölkəmizdə bu bəlaya qarşı sistemli şəkildə tədbirlər həyata keçirildi və bunun nəticəsi olaraq Azərbaycan virusla ən effektiv mübarizə aparan ölkələrdən birinə çevrilib.

Deputat vurğulayıb ki, Azərbaycanda vaksinasiyanın tətbiqi də virusa qarşı mübarizənin effektivliyini xeyli artırmış olacaq:

"Toyların keçirilməsinə gəlincə isə hesab edirəm ki, əhalinin müəyyən təbəqəsi vaksinasiya olunduqdan sonra toylarla bağlı da qərar qəbul etmək olar. Artıq bu gündən etibarən 65 yaşdan yuxarı insanların da vaksinasiyasına başlanılıb.

Məlumdur ki, ölkəmizdə vaksinasiya strategiyası mövcuddur və ilk növbədə risk qrupuna daxil olan insanların vaksinasiyası aparılır. Düşünürəm ki, həm ölkədə epidemioloji vəziyyət, həm də risk qrupuna daxil olan insanların vaksinasiyası nəzərə alınmaqla müəyyən müddətdən sonra toyların da keçirilməsinə icazə verilə bilər.

Əlbəttə ki, toyların keçirilməsi də önəmlidir, çünki ailə institutu cəmiyyətin əsas fundamentlərindən birini təşkil edir. Koronavirus səbəbindən bütün dünyada olduğu kimi Azərbaycanda da nikahların sayı xeyli azalıb ki, bu da yaxşı hal deyil və demoqrafik vəziyyətə mənfi təsir göstərəcək. Bu baxımdan müəyyən qaydalar çərçivəsində, o cümlədən iştirakçıların sayı, sosial məsafə və digər qaydalara ciddi əməl etmək şərti ilə toyların keçirilməsinə icazə verilməsi məqsədəuyğundur.

Ancaq burada insanlarımızın da üzərinə böyük məsuliyyət düşür.

Toyların keçirilməsində daha diqqətli olmaq, qaydalara daha ciddi şəkildə əməl etmək lazımdır. Çünki toylar bizim milli adət-ənənəmizdir və toyda yaxın qohumlar, dostlar iştirak edir və bu baxımdan yaxın təmasdan görüşmələr, söhbətlər çox olur. Ona görə də pandemiya dövründə bu cür hallara yol verməmək vacibdir.

Əlbəttə ümumilikdə bu virusdan canımızı qurtarmaq üçün bir az da səbrli olmalı və qoyulan qaydalara ciddi şəkildə riayət etməliyik".



**Rusiyada Navalnının həbsi ilə bağlı etirazlar yaxın zamanlarda güclənəcək, amma Belarusdakı kimi nəticəsiz başa çatacaq.**

# Oreşkin: Rusiyada Belarus ssenarisi olacaq, amma...

Bunu rusiyalı politoloq Dmitri Oreşkin deyib. "Yaxın zamanlarda etiraz aksiyalarını Belarusdakı kimi gücləndirmək cəhdləri olacaq. Kiminsə əlini sındıracaqlar, başına vuracaqlar, kimisə həbs edəcəklər. Rusiyanı Belarus ssenarisi gözləyir. Nə qədər küçəyə çıxmaq olar? İnsanlar kiminlə qarşı-qarşıya olduğunu başa düşürlər", - deyə o bildirib.

Onun sözlərinə görə, Rusiyada bu vəziyyət ölkənin idarəçiliyini üzərinə götürəcək kontrelita peyda olana qədər davam edəcək:

"Hələlik Putin hər şeyə nəzarət edir, güc orqanları isə ona loyallıq nümayiş etdirirlər. Buna görə də heç nə dəyişməyəcək. Putinin dövründə elitaların yaşaması üçün hər şey yetəri qədərdir, amma xalq üçün bu, yetərli deyil. Onlar hakimiyyətə ona görə tabedirlər ki, digər alternativ görmürlər".

**MEHRİBAN**



*Qalib İsmayılov*

# OLİQARXLARIN QARABAĞ SEVDASI

### *Mədəniyyət Mərkəzi məmur təhlükəsi ilə üz-üzədir*

***Vətən Müharibəsi başa çatandan az sonra, hələ şəhidlərin heç də hamısı tapılıb torpağa tapşırılmamış, hələ qazilərin heç də hamısının yaralarınının tikişi sökülməmiş, ayağını, qolunu itirmişlər protezlə təmin olunmamış oliqarx məmurlar övladlarının, nəvələrinin torpaq, mülk, obyekt payını təmin etmək həvəsinə düşüblər. Həm də müharibədən gizlətdikləri övladlarının, nəvələrinin. Əslində dünyanın çox yerində belədir: Varlılar kasıbların hesabına qazanır, yaşayır, həm də ümummilli qələbələrə sevinir, belə zəfərlərdən bəhrələnirlər. Amma bir çox ölkələrdə varlılar bu komfortu tam da ağ eləmədən, sakit-sakit yaşayırlar. Azərbaycanda isə əksinədir. Oliqarxlar sanki "görək kim öz harınlığını daha açıq şəkildə büruzə verəcək" deyə bir yarışa qatılıblar. İş o yerə gəlib ki, artıq bu fürsətçillər öz nəfslərini, sərvət toplamaq ehtiraslarını ölkənin birinci şəxsinə, təzəcə müharibədən çıxmış Ali Baş Komandana biruzə verməkdən də çəkinmirlər. Azərbaycanda artıq uşaqdan-böyüyə hamı çox yaxşı bilir ki, turizm baxımından Dağlıq Qarabağ nəinki ölkənin, regionun bir çox istirahət zonalarını kölgədə qoyur. Dövlət başçısının Dağlıq Qarabağın tezliklə dirçəldiləcəyini dəfələrlə bəyan etməsi isə o deməkdir ki, yaxın gələcəkdə ölkənin digər turizm bölgələri əvvəlki populyarlığını qismən itirəcək. İndi bu gerçəyi ölkənin sıravi vətəndaşları da çox gözəl bilirlər. Əgər sıravi vətəndaşlar bunu bilirsə, deməli, oliqarx məmurlar, eləcə də keçmiş nazirlər nəinki vəziyyəti bilirlər, hətta bölgəyə aid hazır layihələri də var. Olmasaydı, torpaqlar azad olunan kimi prezidentə müraciət etməzdilər ki.***

***Məlumdur ki, Dağlıq Qarabağ işğaldan azad edilən kimi, Prezidentin Sərəncamı ilə Şuşa şəhərində Dövlət Təhlükəısizlik Xidmətinin (DTX) Regional Mərkəzi yaradıldı. Bu, sözügedən şəhərdə ilk iri dövlət strukturunun mərkəzi idi və niyə yaradılması da cəmiyyətdə heç bir sual doğurmadı. Səbəb aydındır. İşğaldan yenicə azad olunmuş ərazidir, daxili və xarici düşmənlərin hər an təxribat törədə biləcəyi regiondur və s.***

***Bu mərkəzin yaradılmasından dərhal sonra cəmiyyətin oliqarx kimi tanıdığı məmurlar da hərəkətə keçdilər. Bir neçəsi prezidentə müraciət etdi ki, icazə ver, biz də Şuşada rəhbərlik etdiyimiz qurumun regional mərkəzini yaradaq. Prezident də eləmədi tənbəllik, özü bu barədə mediaya açıqlama verdi. Və onların niyyətlərinin şəxsi maraq olduğunu da gizlətmədi. Dedi ki, məqsədləri bu yolla Şuşada bərqərar olmaqdır.***

***Deməli, prezident məmurlara Şuşada lövbər salıb milyonlarını Qarabağ vasitəsilə artırmağa icazə vermədi. Bəs onlar? Onlar bu vəziyyətlə barışıb da, prezidentin dediyi kimi, gedib yerlərində oturub, başlarını aşağı salıb, öz işləri ilə məşğul olacaqlarmı? Bu oliqarxların indiyə qədərki "fəaliyyətlərini" nəzərə alıb əminliklə demək olar ki, yox! Onlar vəziyyətlə barışıb öz işləri ilə məşğul olacaq kəslər deyillər və olmayacaqlar da. Onlar Şuşaya sahiblənmək istiqamətində bütün imkanlarını yox, sadəcə prezidentin xeyir-duası ilə olan imkanlarını itiriblər. İndi isə həmişəki "təşəbbüskarlıqla" əvvəlki planlarını işə salacaqlar. Yəni bu oliqarxlar Qarabağda DTX Regional Mərkəzinin yaradılmasından ilhamlanıb Şuşa ilə bağlı cızmış olduqları planı kənara qoyacaqlar. Ondan əvvəl-hələ müharibə gedərkən, hələ övladlarını, nəvələrini bu prosesdən gizlədib də cızdıqları planı nəyin bahasına olursa-olsun (yerli adamların adından istifadə etmək və s.) həyata keçirəcəklər. Yəni Dağlıq Qarabağda, xüsusən də Şuşada torpaq da əldə edəcəklər, otel də tikəcəklər, zavod-fabrik də yaradacaqlar, mal-mülk sahibi də olacaqlar. Bir neçə ilə biz bunun şahidi olacağıq. Yeri də gələndə prezidentdən aşağıda kimdən ki, bu iş üçün icazə alacaqlar, o deyəcək ki, dövlət başçısı Şuşada regional mərkəz açmağa icazə verməyib, otellə, zavod-fabriklə bağlı bir söz deməyib.***

***Nəticədə yenə də ölkənin başqa regionları kimi Dağlıq Qarabağ da keçəcək bir ovuc oliqarxın əlinə. Paytaxtda, Prezident Adminstrasiyasının bir addımlığında Xəzər dənizini hasarlayan oliqarxların uca dağların başında, buludların arxasındakı Şuşada, Kəlbəcərdə nələr edəcəyini indidən təsəvvür etmək heç də çətin deyil...***

***Bölgədə bu vəziyyətin yaranmamasına, ya da tam yaranmamasına yalnız bir ümid var. Yerli camaatın belə hallara qarşı mütəşəkkillik nümayiş etdirməsi, ictimai nəzarəti gücləndirməsi və DTX-nın regional mərkəzinə qarşı tələbkar olması. Əks halda, olmasın keçmiş məmur, olsun yeni məmur, olmasın əvvəl ölkədə at oynadan məmur, olsun indi atı dingildəyən məmur. Sürəcək atını Şuşanın, Laçının, Kəlbəcərin dağlarına, deyəcək gülü də mənimdi, bülbülü də bu yerlərin...***

***Bir sözlə, Mədəniyyət Mərkəzimiz məmur təhlükəsi ilə üz-üzədir.***

---

## *Rusiya Gürcüstana kompensasiya ödəməyə razılıq verib*



**"Avropa Şurası ilə aparılan fəal iş nəticəsində Rusiya Gürcüstana kompensasiyanın ödənilməsi ilə bağlı danışıqlarda iştiraka razılıq verib".**

**Bunu Gürcüstanın ədliyyə naziri Qoça Lortkipanidze parlamentdə çıxışı zamanı bildirib. Nazirin sözlərinə görə, Rusiyanın imtina mövqeyi ilə bağlı irəliləyiş əldə olunub: "Avropa Şurasının vasitəçiliyi ilə Rusiya məsələnin yoluna qoyulması prosesinə cəlb olunmağa hazırdır. Bu, bizim məsələyə yanaşmamızın düzgünlüyünü sübut edir".**

**Qeyd edək ki, Avropa Məhkəməsinin 31 yanvar 2019-cu il tarixli qərarına əsasən, Rusiya 2006-cı ildə insan haqlarının kobud pozulması ilə ölkədən kütləvi deportasiya olunan ən azı 1 500 şəxslə bağlı Gürcüstana 10 milyon avro həcmində kompensasiya ödəməlidir. Rusiya həmin qərarı bu günə qədər icra etməyib.**

**MEHRİBAN**

---

# GEDİRLƏR KABAB İYİNƏ...

**Sanki bu gün bir çox ticarətçilər insanlarla məzələnmək istəyirlər. Daha doğrusu, elə bilirlər ki, hamı "hərifdi", onların reklamlarına və yalan vədlərinə inansaq , tezliklə uzun müddət sata bilmədikləri geyim paltarlarını baha qiymətə camaata sırıyacaqlar.**

Bu gün Bakıda əksər mağazaların vitrinlərində və şüşələrində belə bir reklama rast gəlmək mümkündü: 50 faiz, 60 faiz, 70 faiz ucuzlaşma! Hətta bəziləri lap irəli gedərək bu ucuzlaşmanı 80 faiz eləyib. Təbii ki, mağazaların vitrindəki bu ucuzlaşmanı görən alıcılar da istər-istəməz yollarını o dükanlara salmalı olurlar. Elə ki, mağazaya girirlər, müxtəlif qış paltarlarına və geyimlərə göz gəzdirirlər, görürlər ki, vitrində yazılan 70-80 faiz endirimlə satılan məhsullar uyğun gəlmir.




***Yəni hər hansı bir paltonun, flaşın və elə götürək digər qış geyim paltarlarının qiyməti bu qədər ucuzlaşbsa, bəs onda niyə satılan palto, yaxud da flaş 700-800 manatdı?! Axı orta hesabla ucuzlaşma varsa, onun qiyməti 200-250 olmalıdı. Lap uzağı 300 manat olsun. Bax, belə yalançı endirimlər və reklam xarakterli qiymətin aşağı salınması insanlarda təəccüb yaratmaqla yanaşı, bir inamsızlıq da ortaya qoyur. Ən azından ona görə ki, alıcılar endirimlə gördükləri geyim əşyaları arasında yerlə göy qədər fəqrli olduğunu hiss eləyirlər. Və onu da hiss eləyirlər ki, həmişə olduğu kimi, Bakıda qış və yay mövsümlərində yalançı endirimlər etməklə mağaza və dükanlar insanları ora cəlb etməyə və aldatmağa çalışır.***

Bakıdakı mağazalardan birinin adını və ünvanını çəkməmək şərtilə bir hadisəni xatırlatmaq istəyirik. Çünki o mağazanın adını çəksək, elə bu reklam olar. Belə ki, yaşlı bir xanım həmin mağazaya girib guya ucuz olduğuna görə, dekabr ayında xoşladığı paltonu almaq istədi. Satıcıya yaxınlaşıb dedi ki, 70 faiz endirim eləmisiniz. Ona görə də xoşum gəldiyi bu paltonu almaq istəyirəm. Satıcı sevindi, tez paltoya sarı getdi. Amma alıcı xanım qiymətə baxanda gözü kəlləsinə çıxdı. Bildirdi ki, ay rəhmətliyin qızı, elə bu paltonun qiyməti dekabr ayında 700 manatıydı. İndi də həmin qiymətə satışa çıxarmısınız. Bunun nəyi endirim oldu? Xanım çox əsəbi halda o mağazadan çıxdı və ətrafındakı adamlara da dedi ki, bunların yalançı endirimlərinə inanmayın. Mən dekabr ayında burda olmuşam, həmin paltonun qiyməti 700 manat idi, indi də dəyişməyib. Sadəcə olaraq, bunlar bizi aldadır və dolayırlar. Biz də gəlirik kabab iyinə, görürük ki, eşşək dağlayırlar.

Ümumiyyətlə, artıq Bakıda insanların mağazalardakı endirimə bir o qədər də inamı və etibarı qalmayıb. Biz bu məsələ ilə əlaqədar araşdırma aparmaq üçün bir neçə mağazaya baş çəkdik.

Elə metronun "Neftçilər" stansiyasının yaxınlığındakı mağazalarda olanda endirimlə bağlı alıcılara müraciət etdik. Onların əksəriyyəti dedi ki, biz 70-80 faiz yazılan endirimlərə inanmırıq. Yenə 10-15 faiz olsa, bu dərd yarıdı. Bayaqdan ha baxırıq vitirinə, bir ucuzlaşmış məhsul görmürük. Amma onların arasında Nailə Məmmədova adlı bir xanım dedi ki, uşaq paltarı aldım, orda 5-6 manat endirim vardı. Amma tay 70-80 faiz endirim olmağını deyə bilmərəm.

***Əksər insanlar sözün həqiqi mənasında qış və yay mövsümündə olan endirimlərə bir o qədər də ümid bağlamırlar. Çünki onlara o qədər yalan danışıblar ki, tay inanmağa bir yer qalmayıb. Azad İstehlakçıklar Birliyinin sədri Eyyub Hüseynov da dəfələrlə televiziyadakı çıxışında bildirib ki, bu cür endirimlərə əhali bir o qədər də inanmamalıdır. Ticarətçilər istəyirlər ki, çoxlu alıcı toplasın və buna görə də hər cür təbliğatdan və reklamdan istifadə eləyirlər. Axı bizim alıcılar da çox vaxt o reklamlara inanır və mağazalara baş çəkirlər. Mənim fikrimcə, hər bir ucuzlaşmanın konkret nəticəsi olmalıdır. Yəni bu ucuzlaşma vitrində, reklamda yox, satışa çıxarılan məhsulların üzərində hiss olunmalıdır. Əgər istehlakçı görsə ki, vitrindəki reklamla satışdakı məhsulun qiyməti uyğun gəlir, istər-istəməz ucuz olduğu üçün o məhsulun alıcısına çevriləcək.***

Bəli, bu gün bu cür reklamlar və endirimlər az qala "gözümüzə girə". Və biz də "gözümüzə girən" bu reklamlara və ucuzlaşmaya hələ də inanırıq. Yox, deyəsən səhv elədim. Artıq böyük əksəriyyət bu cür yalançı endirimlərə bir o qədər də inanmır. Ona görə inanmır ki, onlar artıq görürlər ki, bir çox mağaza və satış mərkəzləri köhnə "metodlarından" əl çəkmir və yenə insanları aldatmaq istəyirlər. Adam bir dəfə aldanar, iki dəfə aldanar, lap uzaqbaşı 3 dəfə aldanar.

**Tay bundan sonra aldanırsa, demək, günah aldananda deyil, allanandadı. Və siz də bu cür ucuz reklamlara inanıb yenidən dələduz ticarətçilərin və satıcıların toruna düşməyin. Çünki bəzən insanlar kabab iyinə gedirlər, görürlər ki, eşşək dağlayırlar...**

**Faiq QİSMƏTOĞLU**

---

## *Azərbaycan Həmkarlar ittifaqları daha 85 şəhid ailəsini himayəyə götürdü*




**2020-ci il sentyabr ayının 27-də Ermənstan silahlı qüvvələrinin təxribatına cavab olaraq Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan ordusunun cəbhənin bütün istiqamətlərində başladığı əkshücum əməliyyatı şanlı ordumuzun qələbəsi ilə başa çatdı. Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsində parlaq qələbəsi ilə 30 ilə yaxın müddət ərzində işğal altında olan torpaqlarımız azad olundu. Bu qələbə əsgər və zabitlərimizin rəşadəti nəticəsində qazanıldı. Bu gün Azərbaycan dövləti və xalqı Vətən müharibəsində şəhid olmuş əsgər və zabitlərimizin qəhrəmanlıqlarını yüksək qiymətləndirir və onların ailələrinə hərtərəfli qayğı və diqqət göstərirlər.**

**Azərbaycan Həmkarlar İttifaqları da şəhid ailələrinin sosial problemlərinin həllini həmişə diqqətdə saxlamaqdadır. AHİK 2016-cı il aprel və 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində həlak olmuş 23 şəhid ailəsinin 41 azyaşlı övladını himayəyə götürmüşdür. Həmin azyaşlılar 18 yaşına çatanadək hər biri aylıq 150 manatla təmin olunurlar.**

**AHİK-in İcraiyyə Komitəsi Vətən müharibəsində şəhid olmuş əsgər və zabitlərin daha 85 ailəsinnin himayəyə götürülməsi və hər bir ailəyə ayda 100 (yüz) manat vəsaitin ödənilməsi barədə qərar qəbul etmişdir. Bununla da AHİK tərəfindən himayəyə götürülmüş şəhid ailələrinin sayı 108-ə çatmışdır.**

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası bundan sonra da şəhid ailələrinin sosial problemlərinin yaxşılaşdırılması üçün müvafiq addımların davam etdirilməsini nəzərdə tutur.**

---

## Roma papası: Cənubi Qafqazdakı vəziyyəti diqqətlə izləyirəm



**Dünyanın bir çox nöqtəsində narahatlıqlar doğuran vəziyyət mövcuddur.**

Bunu Roma papası I Fransisk Vatikanda akkreditasiya olunmuş diplomatik missiya nümayəndələri ilə görüşü zamanı deyib.

O bildirib ki, Mərkəzi Afrika Respublikası, Latın Amerikası kimi bölgələrdə siyasi və sosial gərginliklər narahatlıq doğurur: "Mən həm də Koreya yarımadasındakı, eləcə də Cənubi Qafqazdakı vəziyyəti diqqətlə izləyirəm. Cənubi Qafqazda bir sıra dondurulmuş münaqişə mövcuddur ki, onlardan bəziləri ötən illərdə alovlanmaqla bütün regionda sabitik və təhlükəsizliyə təhdid törədir".

**MEHRİBAN**

---

# Neftin gətirdiyi nəqliyyat: 80 yaşında "ölən" tramvayın 97 illiyi

**Əminəm, bu sətirləri oxuyanlar mütləq Bakıda tramvay və ya tralleybuslardan bir dəfə də olsa istifadə ediblər. Sərnişinləri aramla, asta-asta mənzil başına çatdıran bu nəqliyyatlar müasir Bakı küçələrində görünəndə sanki keçmişlə bu gün qovuşurdu. Nəsə bir, ecazkarlıq, cazibə çıxırdı ortaya. Tələbə vaxtı ən çox istifadə etdiyim minik idi.**

O vaxt qırmızı tramvaylar, sarı tralleybuslar 7-ci mikrorayondan fırlanıb " Gənclik" metrostansiyasının yanında "nəfəsin alırdı". Yeri gəlmişkən, çox vaxt milliyyətcə tatar olan, güləruz, sarışın, dolubədənli xanım xəttə sürücü kimi şıxardı. Simasından təbəssüm əskik olmayan o xanım bəlkə də yeganə qadın-tramvay sürücüsü idi. Tələbələr pul verməyib düşəndə özünü görməzməzliyə vurardı. Dərsdən gələndə sürücümüz həmin qadın olanda kirayədə qaldığım Dərnəgüldə düşmürdüm. Gedib " Gənclik"dən dönüb qayıdırdım. Lap 70 yaşlarında bir qohumum vardı, onun kimi... Deməli, qohum ömrünün pensiya dönəmini bu nəqliyyatda keçirdi. Səhər nahar edib evdən çıxırdı. Tramvayda şəhəri bir neçə dəfədən "kruq"edirdi. Bir də evə günorta saatlarında dönürdü. Nahar edib yenə tələsik evdən çıxırdı. Yenə şəhəri " kruq" eləməyə gedirdi. Elə bil geciksə, onu "işdən" çıxaracaqlar.

### *Neftin gətirdiyi isveçli, isveçlinin gətirdiyi inkişaf*

Hələ 1875-ci il idi. İsvecli məşhur Nobel qardaşları Azərbaycanın qara qızıl sərvətini artıq kəşf etmişdilər . Həmin il Nobel qardaşları Bakıda "Tovarişestvo Neftyanoqo Proizvodstva Bratyev Nobel" - Nobel Qardaşları şirkətini yaradırlar. Az müddətdə Nobel qardaşları Abşeronun bir sıra neft mədəninin sahibi olur, bir sıra zavodlar alırlar. Onlar bütün neft sənayesini dəyişirlər:

Bakı mədənlərinə Amerikadan neft avadanlığı və texnologiyalar, nefti müasir üsullarla çıxarmaq üçün Pensilvaniyadan Bakıya buruq ustaları gətirirlər.

Lakin Nobellərin ən böyük nailiyyəti - dünyada ilk neftdoldurma tankerinin yaradılması olur. 1877-ci ildə Nobel qardaşlarının sifarişi ilə İsveçdə ilk neftdoldurma gəmisi "Zoroastr" inşa edilir. 90-ci illərdə Bakının neft hasilatı artıq Amerikanı ötüb keçərək dünyada birinci yerə çıxır.

Artıq XX əsrin əvvələrinə yaxın Bakıda fəaliyyət göstərən 20 qədər xarici şirkət arasında ən aparıcı yer Nobel qardaşlarına məxsus idi.

### *Fayton, konqa, tramvay...*

**Sənayenin inkişafı özü ilə birgə nəqliyyatın da inkişafını labüdləşdirirdi. Qeyd edək ki, həmin dövrdə minik məqsədilə hazırlanmış cütatlı qədim nəqliyyat vasitəsi olan fayton müasir nəqliyyat hesab olunsa da tələbatı ödəmirdi.**

Bunu nəzərə alaraq 1889-cu ildə yeganə olaraq şəhər nəqliyyatı üçün Bakıda "konqa" (polad rels xəttiylə işləyən fayton) tikildi. Lakin nə faytonlar, nə də konqa neft paytaxtının yenə də tələbatını ödəmirdi.





1903-cü ildə Bakıda elektrik tramvay xətlərinin salınması barədə Şəhər Dumasına təklif gəldi. Bu təklifin reallaşması 20 il ləngiyirdi. Nəhayət, 1922-ci ildə Bakı Soveti layihəni reallaşdıra bildi. Şəhərdə tramvay xətlərinin tikintisinə başlandı. Əvvəl lazımi vəsait olmadığından, relslər Rusiyanın bir neçə zavodunda sifariş olundu.

Şəhərdə ilk dəfə 1924-cü il fevralında elektrik-tramvay yolu istifadəyə verildi.

***Bu xətt Azneft yoluyla Dəmir Yolu Vağzalını birləşdirirdi. Şəhərdə ilk dəfə tramvayla sərnişinlərə xidmət etmək şərəfi Aleksandr Lisovski soyadlı bir şəxsə nəsib olub. Xatirələrində yazır ki, birinci bir neçə saatı sərnişinləri pulsuz aparıblar və bu, Bakıda böyük bayram kimi qeyd edilib.***

***Əgər 1920-ci ildə "konqa" 9,9 milyon sərnişin aparırdısa, 1925-26-cı ildə Bakı tramvayları 50 milyondan artıq sərnişin daşıyırdı. 1926-cı ilin iyul ayında Bakı-Sabunçu-Suraxanı elektrik dəmir yolu, 1941-ci ilin dekabrında trolleybus xətti salındı, 1960-cı ildən tramvay parkının nəzdində funikulyor fəaliyyətə başladı. Həmin illərdə qədər şəhərin tramvay sistemi 117 km qədər böyüdü, lakin metropolitenin işə salınmasından sonra (1967) sistem tədricən kiçilməyə başladı. 1980-ci illərdə şəhərdə cəmi 7 marşrut fəaliyyət göstərirdi.***

### *"Ölüm"ə məhkum nəqliyyat...*

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra isə yerüstü şəhər nəqliyyatına olduqca az diqqət göstərildi və tramvayın süqutu başladı. Türkiyədə, BƏƏ (Dubay), Mərakeş və Əlcəzair kimi ölkələrdə tramvay xəttləri tam yenidən inşa edildiyi halda, Bakıda 2004-cü ildə tramvay sistemi tamamilə məhv edildi.

Mütəxəssislərin fikrincə, tramvay nəqliyyatı həm ətraf mühit, ekologiya, həm də insanların təhlükəsizliyi üçün ideal vasitədir. Hesablamalara görə, əgər bir avtomobil zolağı bir saat ərzində təxminən 1000-1200 sərnişin daşıya bilirsə, müasir tramvay tərəfindən istifadə edilən zolaq 20 min sərnişin daşıya bilir.

Bir sözlə, Cəmi 80 il ömrü olan tramvay nəqliyyatına diqqət artırılsaydı, indi onun 97 illik tarixi yaşını qeyd edərdik.

### *Yeni tramvay xətti?*

**2012-ci ilin fevral ayında , Bakıda tramvay xəttinin bərpa ediləcəyini açıqlandı. "Ağ Şəhər" layihəsi reallaşdıqdan sonra tramvay xətti bərpa ediləcəyi deyildi. Ötən ilin fevralında mövzu yenidən gündəmə gəldi və Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli açıqlama verdi. Dedi ki, Bakı Nəqliyyat Agentliyi xarici şirkətlə bu barədə araşdırma aparır: "Hazırda beynəlxalq təşkilatlarla bu istiqamətdə işləyirik. Artıq Lökbatan qəsəbəsi ilə Hövsan qəsəbəsini Neftçilər prospekti üzərindən tramvay xətti ilə birləşdirmək müzakirə mövzusudur. Çünki burda, həmçinin Ağ şəhərdən tramvay keçməsi mümkündür. Dənizkənarı Milli Parkın birinci sırası sakinlərin əsasən az istifadə etdiyi yerdir, sakinlər əsasən dəniz kənarında gəzməyə üstünlük verir, buna görə də həmin ərazidən xəttin çəkilməsi mümkündür. Əgər həmin təşkilatlar bizə müsbət cavab versə, biz ümumiyyətlə Neftçilər prospektində ictimai nəqliyyatı yığışdıracağıq".**

**Səbr edək və gözləyək!**

**Əntiqə Rəşid**

# ASTARA ŞƏHİDLƏRİ

## Ürəyi Vətən dolu Kamran Seyfullazadə

**”22 yaşını yanvarın 14 - də qeyd elədi o dünyada” - ananın ağrılı səsi minamyotun qəlpələri kimi Kamranla birlikdə mənim də canıma doldu elə bil.**

Kamran Seyfullazadə Cəlal oğlu 1999 - cu il yanvarın 14 - də Astarada doğulub.Orta təhsilini F. Əliyarov adına 6 nömrəli məktəbdə alıb.

Uşaqlıqdan sevimlisi olub hamının gözəlgözlü Kamran: ailənin, qohum - qonşuların, məktəbin, böyüyün, kiçiyin.

”Gözümün qabağında böyüyən uşaqdı. 12 - 13 yaşı olardı. 26 fevralda Xocalı faciəsi ilə bağlı kadrlara baxırdıq. Kamranın gözləri dolmuşdu. ”Mən bunun qisasını alacam” dedi. Ona baxdım. Gözlərində qəzəb, nifrət vardı. Elə hey deyərdi ki, erməni kimdi, bizim torpaqlarımızı alsın, kimdi? O qədər həyacanlanır, fikir edirdi ki. Ona ürək-dirək verirdim, sakitləşdirirdim. Onun ürəyi Vətən azadlığı arzusuyla döyünürdü. Bütün oğullarımız, bütün Şəhidlərimiz mərddi, igiddi hamısı. Amma 100 nəfər seçməli olsaq, onlardan biri mütləq Kamran olar. Sözlə ifadə edə bilməyəcəyim qədər qeyrətli, cəsarətli uşaq idi.- bunları Kamranın ən yaxın dostlarından biri olan Fuadın atası Adil söylədi.

Novruzlu Fuad isə Kamrannan saatlarla danışmaq istəyirdi: Ondan nə qədər danışsam, nə desəm az olar. Deyə bilmərəm. Heç ayrılmazdıq. Ondan ayrılmaq olmurdu.

### *Bütün uşaqlığımız*

***bir yerdə keçib.Məndən kiçik olsa da, çox ağıllı idi. Onunla məsləhətləşərdim. Lazım gəlsə, dostuna görə canını verərdi, o ki qala Vətən. O, hərbi xidmətdə olmuşdu. Polad Həşimov öləndə çox sarsıldı. Adını o vaxtdan yazdırmışdı. Müharibə başlayanda o saat könüllü cəbhəyə yollanıb. Axırıncı söhbətlərimizdən birində dedim ki, özünü qoru. Dedi ki, burda hamı Vətəni qoruyur. Burda elə oğlanlar var ki! Burda hamı birdi. Əsas odu düşmən qabağımızda dayana bilmir. Son nəfəsəcən döyüşüb. Şəhid olan döyüş yoldaşının da silahını götürüb iki silahla döyüşüb. İtkisi bizim üçün çox ağırdı. Amma hamımızın başını uca elədi.***

”Çox yaxın 4 dost olmuşuq - Mən, Fuad, Orxan, bir də ən kiçiyimiz Kamran. Ən şirin, ən qiymətli xatirələrimdi Kamran. Doğmam idi. Onun kimi mərd oğullar hələm-hələm gəlmir dünyaya.

Mərdliklə də döyüşüb.Tez-tez əlaqə saxlayırdıq. Son döyüşdə 8 nəfər olublar. Sona qədər döyüşüb.Sona qədər. Bilib ki, öləcək, amma postunu tərk etməyib”. Bunları da dostu Məlikzadə Elbrus söylədi.

Orxansa deyir ki, Kamran əlindəki bir tikəni dostuna, ya ehtiyacı olan birinə verə bilərdi. Mən də dostlarımı sevirəm, amma həmişə mənə elə gəlib ki, Kamrana çata bilmərəm. Müharibə başla-



yanda ayrı düşmüşük. Eynullazadə Orxan da igid döyüşçülərimizdəndi. Fizuli, Xocavənd, Cəbrayıl uğrunda döyüşlərdə olub. Döyüşlər haqqında danışmaqda çətinlik çəkir: Yadıma düşür, ağrıyıram. Müharibədi, meşədə qalmışıq, ac-susuz olmuşuq, amma bunlara fikir vermirdik. Ən ağırı yanındakı döyüş yoldaşlarının şəhid olması idi. Snayperlər izləyirdi, bilirdilər ki, şəhidləri, yaralıları döyüş yerindən mütləq çıxaracayıq. Kamran da şəhid dostlarını qoyub gedə bilməyib. Elə oğul idi. Sonu ölüm olsa belə, kimsəni darda qoymazdı...

### *Uşaqlıq və döyüş dostlarını,*

***onu tanıyanları dinlədikcə qorxmaz, mərd, sözünə bütöv, yaraşıqlı Kamranı görürdüm elə bil. Gözlərim önündə Kamran canlanırdı: ürəyi Vətənlə dolu Kamran.***

”Boy-buxunluydu Kamranım. Onunla birlikdə özümü də, ürəyimi də dəfn eləmişəm elə bil. 12 yaşından ailənin yükünü çəkib, oxuyub, həm də işləyib”- deyir ana.-Onu hamı çox istəyirdi. Hamı. Döyüşçülər də o qədər tərifləyir, deyirlər ”siz ona canavar südü, şir südü vermişdizmi belə qorxmaz idi?” Bir dənəm idi. Qəhramanımız Polad şəhid olan gündən bu uşaq özünə yer tapmırdı.”Gedəcəm” deyirdi. Torpağını sevirdi. Medal üçün döyüşməyib mənim balam, amma o qədər medal verdilər oğluma”.

Cəbrayılın, Fizulinin, Xocavəndin azadlığına görə medalları ilə təltif olunub Kamran Seyfullazadə.

***Gənc yaşının qocaman hörməti vardı. Onu həm də mərdliyinə görə sevirdilər. Cəsarətinə görə döyüş yoldaşları ona ”Əjdaha” deyirdilər. Neçə - neçə yaralını xilas edib, şəhid olanları güllə altından çıxarıb ”əjdaha Kamran”.***

***Xüsusi Təyinatlıların könüllüsü olan Kamran Seyfullazadə Fizuli, Hadrud, Cəbrayıl, Xocavəndin azadlığı uğrunda döyüşlərdə iştirak edib. Xüsusi Təyinatlılarla birlikdə Şuşaya daxil olub.***

Şuşa uğrunda döyüşlərdə də noyabrın 5-də qəhrəmancasına həlak olub 21 yaşlı qəhrəmanımız.

”Oğluma ən gözəl sözləri yazın” - dedi bir də Ana. Təsəlli verə bilmədim. ”Ağlayan səsinin başına dönüm” - dedim sadəcə. Deyə bilmədim ki, ən gözəl sözləri, əsrlərlə yaza bilmədiyimiz sözləri sənin Kamranın yazıb ”Qələbə!

Bizi utancdan qurtarıb. Azərbaycanın tarixinə elə sözlər yazıb ki! Kamranlar nələr edib bilirsənmi ana?” - deyə bilmədim.

”Özü getdi. Mən ona heç ”getmə” də demədim. Bilirdim ki, gedəcək. Bilirdim ki, Vətəni sevir. Ölümü gözə alıb gedib” -sözlərini tez-tez təkrarlayan anaya nə deyəydim ki?

Kamran bütün şəkillərində gülümsəyir. ”Ana, ağlamazsan. Mən ermənilərdən qisas almağa, Vətən üçün ölməyə, Şəhid olmağa gedirəm” - deyən gözəl gözlü, gülümsər üzlü gəncə nə deyə bilərəm ki?...

**Bir də ”Vətən uğrunda” medalı verilib ona. Vətən uğrunda ölməyə hazır olana nə demək olar?..**

**Kamalə Abiyeva**

## VƏTƏN SİZƏ OĞUL DEDİ

***MAXE***
***Sadıqov Elgün***



**Sadıqov Elgün Heydər oğlu 2000-ci il 11 yanvarda Ağdam rayonunun Sarıçoban kəndində doğulub. Kənd məktəbinin məzunu olub. Hərbi xidmətini başa vurduqdan sonra MAXE kimi hərbi hissədə sürücü olaraq çalışmağa başlayıb. 2020-ci il 27 sentyabr Vətən müharibəsində ermənilərin onun maşınını hədəfə tutması nəticəsində oktyabrın 23 də qəhrəmancasına şəhid olub.**

***Xocavəndin işğaldan azad olunmasında qəhrəmancasına şəhid olub***



**Əsgər Məmmədzadə Pərviz Zahid oğlu 31.07.2001-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayon Qaraxanbəyli kəndində dünyaya göz açıb.**

**2007-2015-ci illərdə Qaraçuq kəndində yerləşən Vilayət Mahmudov adına 9 nömrəli tam orta məktəbdə təhsil alıb. 2015-ci ildə Naxçıvan şəhərindəki Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olub. 2018-ci ildə bu liseydən məzun olaraq Bakıdakı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2020-ci ildə təhsilini yarımçıq qoyaraq hərbi xidmətə yola düşüb. 6 noyabr 2020-ci ildə Xocavəndin işğaldan azad olunmasında igidlik və mərdlik göstərərək qəhrəmancasına Şəhid olub. 19 noyabr 2020-ci ildə Qaraçuq kənd məzarlığında torpağa tapşırılıb. Əsgər Məmmədzadə Pərviz Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə ”Vətən uğrunda” və ”Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.**

***“Şahbaz” ləqəbli şəhidimiz***



**Şahbazov Ruslan Mahir oğlu 19 iyul 1991-ci il tarixdə Tərtər rayonu Ələsgərli kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanan Ruslan, əsgər kimi xidmətini başa vurduqdan sonra XTQ kurslarına başlayıb. Kursu gizir hərbi rütbəsi ilə, müvəfəqiyyətlə başa vurub. 2016-cı ilin Aprel ayında baş verən hərbi əməliyyatların iştirakçısı olub. Qorxmazlığı, igidliyi, qoçaqlığı, cəsarəti ilə fərqləndiyinə görə döyüş yoldaşları ona ”Şahbaz” ləqəbi verib. Dəfələrlə orden və medallarla təltif edilib: ”Hərbi Xidmətlərə Görə” medalı, ”Azərbaycan Ordusunun 100 illiyi Yubiey medalı, Vətən müharibəsində ”Azərbaycan Bayrağı” Ordeni və ”Vətən uğrunda” medalı. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində Azərbaycan Respublikası ərazi bütövlüyünün bərpa edilməsi zamanı yüksək peşəkarlıq nümayiş etdirib, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərib.**

**29 senyabr tarixində Vətən müharibəsinin Talış kəndi cəbəhəsində vuruşarkən qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlib.**

***Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



**Məmmədov Elşən Dağıstan oğlu 06.02.1996-cı ildə Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olub...**

**27.09.2020-ci ildə başlayan Vətən müharibəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edib və hərbi hissə qarşısında qoyulan tapşırıqların icrası zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***Murov uğrunda gedən döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərib***



**Əsgərli Tural Ələmdar oğlu 20.04.1993-cü ildə Naxçıvan MR-sı Kəngərli (Şərur) rayonu Qıvraq kəndində anadan olub.**

**Uşaqlıqdan hərbiyə olan istəyi 2007-ci ildə onu Heydər Əliyev adına hərbi liseyə gətirib çıxardı.**

**Hərbi liseyi yaxşı qiymətlərlə bitirən Tural 2010-cu ildə hərbi təhsilini artırmaq üçün Heydər Əliyev adına AAHM-nə daxil olub. 2015-ci ildə leytenant kimi Qazax rayonundakı ”N” saylı hərbi hissədə tağım komandiri kimi xidmətə başlayıb.**

**Daha sonra bir neçə hərbi hissələrdə xidmət edən Tural baş leytenant rütbəs aldıqdan sonra Daşkəsəndə xidmətini davam etdirməyə başlayıb. İkinci Qarabağ savaşı ”Vətən Müharibəsi” başlayan zaman Tural Murov uğrunda gedən döyüşlərə qatılıb və həmin döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərib. 01.10.2020 ci ildə artilleriya zərbəsi nəticəsində qəlpə yarası alaraq qəhrəmancasına Şəhid olub.**

**İndi gəzdiyim bu yerlərin, bu küçələrin elə xatirəsi var ki, bu gözəllikdə mənzərə də unutdura bilmir onları..**

**Bayıl...**

**Təxminən, Eyyub Yaqubovun ”Bayıl gecələri” xatirəsi kimi..**

*Bayıl könlümün səsi*
*Xəzərin mənzərəsi*
*Bayıl uşaqlığımın,*
*Ən şirin xatirəsi...*

Hər daşının, hər küçəsinin bir xatirəsi, bir hekayəsi var. Uşaqlığım, indi keçən gəncliyim..

Mən daha çox uşaqlıqdan sarı tamarzıyam. Çünki burda bütün xatirələrin üstündən bulduzerlər oyana-buyana keçib, sonra da yekə-yekə adamlar bəzəkli kafellər döşədilər, qəribə ağaclar saldılar ki, deyiləsi deyil. Bizim ağacları qırdılar, Ağabəy, qırdılar.

Mismarla adımızı yazdığımız, yanından keçəndə əl atıb budağını qırdığımız, kölgəsində eşələndiyimiz ağacları. Gəzdiyimiz tozlu-torpaqlı yerlər yoxdu indi.

O gecə qondu evlər, o gözəlim adamlar kdavratına 1500 manatla çıxıb getdilər göydələnlərə..

İndi hər evə gedəndə baxıram, baxıram, xatırlayıram. Gedə bilməyən, ölən dostları, yaxınları, burda sevən, sevilən adamları..

# Bayıl küçələri, Bayıl gecələri..



Düzü, Bayıl indi tam başqadır. Əvvəl məhlə idik, indi şəhər olmuşuq. Bakılıların sözü olsun, yoxduye, qədeş, ta əvvəlki mehribançiliy, dostluq yoxduginən. Köhnələrdən heç kim qalmıyıb, məhəllə başqa adamlarla dolub. Bilmirsən, kim kimdü, neçidi. Şoğərib haqqı, üregim sıxılıb.Məşhur Bayıl türməsi var idi... Kimlər srok çəkmədi burda.. Gözümüzün qabağında sökdülər. Məhbuslar etap, hasarlar sökülü, reşotkalar yox.

Bayıl türməsini azadlığa çıxartdılar beləcə..

Nələr olmurdu ki, bu ətrafda? Düzdü, bunlar o qədər də yaxşı hadisələr deyil, amma adam yenə də qəribsəyir adam. Kriminal məsələlərin boy atdığı bir vaxtda Bayılın hər yerdən sədası gəlirdi. Dəlisov oğlanları, gözü qara adamları. Kimlər bıçaqlanmadı, kimlər güllələnmədi, nə oğurluqlar olurdu, nələr yaşanırdı. Heç bilməzdim, belə şeylər üçün darıxa bilərəm.

O Bayıl uşaqları da getdi. Bəzilərinin başını mal apardı, bəziləri srok, bəziləri də özünü aradan çəkə bildi. Cabirindən tutmuş başqalarına qədər. Yoxdu heç kim. Küçələr qalıb uşağ-muşağa.

8-ci bölmə.. Nələrə, kimlərə şahid olmadı, kimlər aformut olmadı burdan. İndi də var, amma heç əvvəlki tutulmaların yerini vermir.

Bazar yerindədi, amma o da o deyil. Rayon mühitini xatırladan, pendir suyunun iyi bazar boyu, balığın iyi 3 kilometrdən adamı necə vurursa, dəli olursan. İndi elə bil, pendir də, balıq da o deyil. Buralar parfum kokuyor, arkadaş..

Necə deyir Bayıl uşagı Eyyub Yaqubov?

Bayılda hamı tanıyır Şamayka Oktayı..

Hamının bir-birinin tanıdığı Bayıl...

Hansı küçəyə girərdin, görərdin, yaşlı adamlar yığışıb bir yerə, söhbət edir, nərd, domino oynayır. Yoxdu o kişilər. Getdilər çoxu da. Qalanlar, indikilər də işdə-gücdə.

Tin bucaqlarında yeni cücərən sevgilər, bitən evliliklər, nələr nələr. İlahi, Bayılı niyə belə elədin ki? Anlayırıq, gözəldir, inkişaf var, amma, axı, biz darıxırıq..

İndi bu dənizkənarı bulvar, açığı, o qədər də həzz vermir. Gəlib bura atraksionlar qoymusuz. Mədənilik olubmu bir az? Olub, danmıram. Amma, axı, darıxırıq.

Hərdən pəncərəni açanda vura neft qoxusu üçün darıxır adam. Niyə başa düşmürsüz?

Sökdünüz o isti evləri, odun peçi yanan evləri, bacası tüstülü evləri, gətirdiz dəmir-dümür ”atapleniyaları” qoydunuz ora. İşığı da kəsirsiz, qalırıq büzüşə-büzüşə. Gül kimi sobanın üstünə şabalıd qoyub yeyirdik də, Allahsızlar!

Yol boyu bu nə göydələnlərdi uzatmısız? Buludu da görə bilmirik. Üzü 20-ci sahəyə, evimə gedirəm, bircə buralar qalıb, amma deyirlər, buraları da sökəcəklər. Dilimə yaraşmsa da deyəcəm;

**Buranı sökənin evi yıxılsın? Ovcumuzda bir tikə xatirə, sevgi var, almayın onu bizdən. Biz, belə də xoşbəxtik.**

**Orxan Saffari**



**Qəşəm İsabəyli**

# "Sağın getdi, solun getdi, sən də yığışdan, Əlnağı"

**Koronavirusun ölümü konveyer halına saldığı, təəssüf-ağrı dolu qəm yükünü azaltdığı və kiminsə həyatdan getdişini adiləşdirdiyi vaxtda, Kürdəmirin Xəlsə kənd sakini, 60 il od-su qonşumuz olmuş, adından çox peşəsiylə - "aqronom" kimi tanınan Əlnağı Rəhimovun - Hacı Əlnağının həyatdan köç elədiyini eşidəndə fikrə getdim.**

Birdən Hacı Hacoğlan əmoğlundan eşitdiyim yadıma düşdü. Demə, yaşlanandan sonra yaradıcılığa meyli oyanmış Hacı Əlnağı, çoxdan imiş ki, özünü o dünyaya təhrik eləyirmiş:

*Sağın getdi, solun getdi,*
*Arxan getdi, önün getdi,*
*Sən də yığışdan, Əlnağı!*

Bu "yığışdan" sözünü də özü yaratmışdı. Güman ki, "yığışsana", "yığışıb getsənə" mənasında islədirdi.

Hacı Əlnağı kəndimizin baramaçılıq üzrə üç ağronumundan biriydi. Bu üçlüyün - Əlnağı Rəhimov, Əlibala Mustafayev, Abdul Abdulov, yaşca hansının böyük, hansının kiçik olduğunu deyə bilməsəm də, bildiyim o idi ki, üçü də birbirinə yaxın qohum idilər. İndi fikirləşəndə görürəm ki, bu üç nəfərin heç biri qal adamı deyildi, səmimiydilər, xoşniyyət idilər. Hacı Əlnağı bu üçlüyün bir az ayrı tərəfiydi, - deyib-gülən, şuxluğu sevən, zarafatcıl. Bəlkə də üç peşə yoldaşından daha uzun yaşamasının da səbəbi bu olmusdu.

### *O da yadımdadı ki,*

***anam da kəndimizin barama aqronomlarına baxıb, kiçik qardaşım, rəhmətlik Abdulbağının ağronom olması arzusuna düşmüşdü. Abdulbağını Şəkiyə - İpəkçilik texnikomuna aparan da mən olmuşdum.***

Dediyim kimi, Əlnağı Rəhimov deyib-gülən, zarafatcıl, az qala hər sözdə, hər cümlədə gizlənən məzəli bir fikri tapıb çıxartmaq ustasıydı. Ümumiyyətlə bizim Xəlsədə danışmağa pərgar - söz adamıı çox olub. Biri müdrik Məşədi İlyas kişiydi. Rəhmətliyin bir yığın sözsöhbəti hələ də onu yaşadır. Mən o sözlərdən müəlliflik haqqı vermədən tez-tez istifadə edirəm.

Rəhmətlik Qədir dayı, Şura xalamın həyat yoldaşı, danışırdı ki, bir gün Məşədi İlyas evə gələndə görür, yad ayaqqabı var eyvanda.

**-Qonağımız gəlib, deyəsən?- Soruşur.**

**Yoldaşı qayıdır ki:**

**- Hə...**

**-Hanı?**

**-Namaz qılır.**

Məşədi İlyas tez girir içəri, qonaq rükuyə gedəndə deyir:

**-Dayan!**

Qonaq donub qalır...

**-Dur çıx burdan, orucu-namazı mənim qapıma dadandırma!**

Şirin söz deyən, məzəli əhvalatlar danışan, satirik aktyor səviyyəsinə yüksəlmiş rəhmətlik bibioğlum Mirqayıb vardı, Hökməli vardı, Şamıl vardı. Saatlarla danışsaydılar sözlərindən doymaq olmazdı. Hacalı əmim isə lapdan söz demək ustasıydı. Dinməzdi, dinməzdi, birdən elə söz deyərdi, adamın dəymişi durub, kalı tökülərdi. Bir gün rəhmətlik barama qurdu götürmək üçün durub gedir Hacıbala əminin yanına. "Abdullayev sənə barama qurdu yazmayıb" cavabını eşidən kimi tərpənir kolxoz sədri Əlisahib Abdullayevin qəbuluna. Özü danışırdı ki, girdim içəri, dedim, niyə mənə qurd yazmamısan? Dedi, sən planı yerinə yetirmirsən. Dedim, illərdi Sabirabad planı yerinə yetirmir, nə yaxşı ona barama qurdu verirlər. Rəhmətliyin xırda gülüşü vardı, güldü, güldü, sonra dedi, get götür.

### *Dünyanın gözəl günləri idi*

***Əlnağı Rəhimov da o gözəl günləri yaşamışdı. İndiki kimi gözümün qabağındadı, Seyfəddin Dağlının "Vergülağa Nöqtələrov" əsəri çıxmışdı. İkimiz də oxumuşduq. Çəpər-çəpərə olduğumuzdan elə çəpər başındaca (10 -11 yaş məndən böyük idi rəhmətlik) həmin kitabı müzakirə eləyərdik. Deyim ki, bu kənd ziyalısının zəngin kitabxanası da vardı. Təzə çıxan kitabları almağa əli də var gələrdi. Şuxluğu, zarafatcıllığı ailəuşaq münasibətinə də sirayət eləmisdi. Olduqca mehriban, ailəcanlı idi. Qonşumuz Mirqayıb bibioğlu bir şərqli ailə basçısı kimi arvadla hökmlə danışanda, Əlnağı Rəhimov həyat yoldaşıyla bir avropalı kimi demokratik dolanırdı. Yəni, can deyib, can eşidirdi. Onu da deyim ki, həyat yoldaşı özündən neçə illər qabaq rəhmətə getmişdi.***

Anam sağlığı kəndə tez-tez gedərdim. Qonşumuz Hacı əmoğlu da gələrdi, Hacı Əlnağı da gələrdi. Oturub ürək söhbəti eləyərdik. Anam rəhmətə gedəndən sonra böyük şairimiz Məmməd Arazın sözləriylə desəm:

*Bir də bu yerlərə gəlib-getməyim*
*Anamla birlikdə məzara getdi.*

Gələndə də həyət-bacamız soyuq gəlirdi mənə, qərib hiss eləyirdim özümü. İldə bir dəfə gedə-gətmə-yirəm kəndə. Sonra Hacı Əlnağı da köçdü Bakıya. Açığı, eşidəndə, çox təəssüf eləmisdim bu köçə.

Yadıma gəlir ki, rəhmətlik Şıxalı əmi də Nisə ananı götürüb, tək oğlu Bahadır əmoğlu Kürdəmirdə yaşadığından, Xəlsəni tərk eləyəndə ürəyim ağrımışdı.

O günü, Axtaçının Dayıkazımlı kəndinin ağsaqqalı, orta məktəb illərimizin sevimli həkimi, indinin halal Allah bəndəsi Hacı Rəcəb zəng eləmişdi mənə:

**-Eşitmisən?! - Soruşdu.**

**-Eşitmişəm, Hacı.**

**-Təbabətdə belə bir şey var ki, 3 ayına qədər uşaq və bir də yaşa dolmuş insan gərək öz daimi yaşayış yerini tərk edib, başqa iqlimə köçməsin. Fəsadı olar...**

Kitablarla sıx ünsiyyətdə olan Əlnağı Rəhimov, dediyim kimi, yaşlaşandan sonra yaradıcılığa meyl eləmişdi. Hətta onun yığıb topladığı zarafatlardan ibarət ilk kitabını da nəşr eləmişdim:

"Kürdəmir rayon partiya komitəsinin I katibi kolxoz sədrlərindən biriylə kirvəymiş. Həmin sədrdən də pambıq briqadiri bərk yazırmış. Sədr katibə deyir ki, bəs bizdə bir briqadir var, pambığı gözündən batırıb, yoxlama göndər, tutdur getsin. Katib instruktor Xələf müəllimi göndərir yoxlamaya. Xələf müəllim gəlib baxır ki, briqadirlər arasında ən yaxşı təsərrüfatçı da elə bu adamdı. Dişə dəyən bir dənə də alağ tapmazsan pambıq tar-lalarında. Xələf müəllim qayıdır. Katib başlayır sorğu-suala:

**-Gedib briqadirin sahəsini yoxladın?**

**-Bəli, yoldaş katib.**

**-Bəs aktın hanı?**

**-Yazmadım, yoldaş katib.**

**-Niyə?**

**-Qorxdum!**

**-Bu boyda rayonun instruktorusan, nədən qorxdun?**

**-Bir adamın ki, adında iki vəhşi heyvanın adı ola, ondan necə qorxmayasan?!**

**-O nə addı?**

**-Şir-Aslan..."**

Qəribə şakəri vardı Hacı Əlnağının. Onda ki, duyurdu müsahibi ya basıb bağlayır, ya da alimlik iddiasına düşüb, onu avam yerinə qoymaq istəyir, durar-tutmaza nə desə yaxşıydı: "Yalan deyir, ey!"

Bununla da qarşısındakını tərk-silah eləyərdi.

Özünəməxsus Hacı Əlnağının bir para söz də vardı ki, onlardan bərk acığı gələrdi. Bunun biri "korrup-siya" idi, o biri də "antisanitariya":

***-A kişinin oğlu, başa düşə bilmirəm, gül kimi "talançılıq" sözünü qoyub, bu "korrupsiya"nı nə salıblar dilə-dişə. Vallah, çox yumşaqdı ey, heç təsiri yoxdu dövlət idarəsini yeyib-dağıdan məmura. İnandırım səni, bəlkə çoxu bu sözün mənasını da bilmir. Ya da götürək elə "antisanitariya" ittihamını. A kişinin oğlu, bəs bu "pintilik" sözünü Allah niyə yaradıb?!***

Koronavirus başlayandan bir dəfə getmişəm kəndimizə. Bir də yazda getmək fikrim var.

Biliрəm ki, gözüm gəzəcək Hacı Əlnağını - çəpərinə boylanacam, qulağım səsdə qalacaq. Amma nə faydası:

*Sağın getdi, solun getdi,*
*Arxan getdi, önün getdi,*
*Sən də yığışdan, Əlnağı!*

**Qəbrin nurla dolsun, Hacı Əlnağı!**

# "Sənətdə dağınıqlıq bizə zövq verir"

*Müsahibimiz rəssam Aynur Aydındır.*



**- Məktəbdə musiqi təhsili almısınız. Musiqidən rəssamlığa, səsdən rəngə dönüş necə oldu?**

- Əslində, gələcək üçün pianist olmaq fikrində idim. Böyük səhnələr, konsertlər və gözəl pianist olmaq. İş elə gətirdi ki, alınmadı. Diplomatiya oxudum. Elə təhsil müddətində bir şeylər cızma-qara etməyə başlamışdım. Uşaqlıqdan maraq var idi, təhsildən sonra da rəssamlığa meyl etməyə başladım.

**- Bəlkə səsin içində rəngləri gördünüz?**

- Sənətin bir sahəsini sevdikdən sonra demək olar ki, çox qolu sizi içinə çəkməyə başlayır. Ötürdüyü hislər eyni olur çünki. Pianinoda ifa edərkən necə hiss edirdimsə, rəsm çəkərkən də eynisini duyuram.

**- Ali təhsiliniz də fransız dili üzrədir. Hər kərə rəssamlıqdan kənar sahə. Maraqlıdır, bu ixtisaslar yaradıcılığına hansı köməkliyini göstərir?**

- Belə götürsək təhsilə də peşman deyiləm. Sənətdən ayrı olmağına baxmayaraq hazırda çox şeydə, adi fantaziyalarda, portret rəsmlərdə belə müəyyən şeylərə əsaslanmağa yardım edir. Psixologiya, məntiq, fəlsəfə, müxtəlif xalqlar, iqtisadiyyat, siyasət və s.aldığım bilgilər hazırda məəyyən bir mövzu barədə axtarış edərkən köməyimə çatır.

**- Rəssamlıq təhsilinin olmaması hər hansı maneçilik törətmir sizə? Və yaxud digər rəssam dostlarınız tərəfindən ciddi qəbul olunmamaq və.s**

- Törədir, əlbəttə. Özümdə əskikliyini hiss edirəm. Bilgimin az olduğunu düşünürəm. İstər texika, istər rəssamlıq tarixi, rəssamlar və rənglər barədə insan özü nə qədər araşdırsa da təhsilin yerini verməz. Buna görə fikir olaraq var ki, bu sahədə təhsil alım. Digər rəssamlar tərəfindən ciddi qəbul olunmamaq məsələsində isə həmkarlar tərəfindən belə bir reaksiya ilə qarşılaşmamışam. Mənə xoşdu bilmədiklərim haqqında məlumatlandırsınlar.



**- İlk sərginiz "Sandıq" adıyla oldu. Niyə "sandıq"? İndiyə qədər "sandığ"ınızda nələri gizlətmişdiniz?**

- "Sandıq" da mənim uşaqlığım gizlənmişdi, ordakı qoxulu əşyalar. Ancaq çox cüzi bir hissəsini sərgilərə bildiyimi düşünürəm. Çox əşya, çox xatirə hələ toz içində qalıb.

**- İnsanların yaradıcılığınıza yanaşması sizi qane edir?**



- İstisna hallları çıxmaqla hazırkı durum üçün qane edir. Ümumiyyətlə, bu bir az da insanın özündən asılıdı, nəyi necə sunmağından, nəyi necə təqdim etməyindən. Anlada bilirsənsə əksər insan bunu anlayır və sayğı göstərir.

**- Yeni sərginiz olacaq. Nə yeniliklər etmək fikriniz var? Bizi təəccübləndirə biləssiniz?**

- Təəccübləndirə bilmək üçün bunu cavablamamağım daha doğru olacaq. Ümid edirəm sözün yaxşı mənasında təəccübləndirə və zövq bəxş edə biləcəm.Yaxşı pul qazanmaq üçün illərlə pul qoymalısan

**-Şeirdən fərqli olaraq rəssamlıqda necə deyərlər "yaxşı pul" var. Bu fəaliyyətinizin sizə maddi dəstəyi və çətinliyi hansı formadadır?**

- Rəssamlıqda yaxşı pul olması üçün illərcə yaxşıca pul qoymalısan. Həm inkişafına, həm bu yolun özünə. Maddi çətinlik zəhmətə baxır. Nə qədər zəhmət o qədər qazanc. Yenə də insanın özünə bağlayıram. Sahədən çox insani keyfiyyətlərə.

**- Hansı rəsm əseriniz sizə daha doğmadır?**

- "Sandıq" üçün çəkdiyim tikiş maşını işim. Orda həm nənəsinin daş eyvanında oturub tikiş maşının qapağıyla xəyal quran balaca uşaq var, həm də ola biləcək sökükləri daim tikməyə çalışan sakit bir qadın.

**- Adətən rəssamlar haqqında filmlərdə, əsərlərdə rəssamların həyatı dağınıq, səliqəsiz təqdim olunur. Sizdə bu necədir? Özü də bir xanım üçün...**

- Şəxsi olaraq dağınıq biri deyiləm, ancaq emalatxana məsələsinə gəlincə, bəli sənətdə dağınıqlıq bizə zövq verir. Amma onun içində də kənardan görünməyən xüsusi bir düzənim olur.

**Söhbətləşdi:**
**Emin Piri**



# SEYRAN SƏXAVƏT – GÖZÜNƏ İŞIQ DÜŞMÜŞ ADAM

**Seyran Səxavət 1946-cı ildə Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində anadan olmuşdur. Kənddə orta məktəb bitirmiş, 1964-cü ildə ADU-nun Şərqşünaslıq fakültəsinə daxil olmuşdur. Sovet Ordusu sıralarında əsgəri xidmət etmiş, SSRİ Müdafiə Nazirliyində tərcüməçi işləmişdir. İki il İranda da tərcüməçi olmuşdur.O, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında, daha sonra "Ulduz" jurnalında ədəbi işçi və şöbə müdiri kimi çalışmışdır. Bədii yaradıcılığa 1962-ci ildən dövri mətbuatda çap etdirdiyi şeir, hekayə və publisistik yazıları ilə başlamışdır. Əsərləri təkcə Azərbaycanda deyil, keçmiş SSRİ xalqlarının dillərinə də tərcümə olunmuşdur.**

### *"Bu uşağın böyük gələcəyi var"*

"Hamı qaçhaqaçdadı. Bərk qaçhaqaçdı; Düz sözdən qaçırıq, vicdandan, qeyrətdən, namusdan, insafdan, övladdan, valideyndən, ölkədən, məbəddən, işdən Allahdan Yaman qaçhaqaçdı, Allah axırını xeyir eləsin.."

Seyran Səxavət 1946-cı ilin ilk bahar günündən-23 martdan bəri qaçhaqaçdadı, elə qaça-qaça, o sarışın oğlan gəlib 75 yaşına (vallah, heç inanılası deyil) çatdı.Amma lap sonuncu (hələlik sonuncu) romanı "Qaçhaqaç"da dediyinin əksinə olaraq nə Düz sözdən, nə vicdandan, nə qeyrətdən, nə namusdan, nə insafdan, nə övladdan, nə valideyndən, nə ölkədən, nə də Allahdan qaçdı. "Gözündən bal axan" Əsgərxan bulağının suyundan içə-içə, Savalan müəllimin ədəbiyyat haqqında "mühazirələrini" dinləyə-dinləyə, məşhur Azıx mağarasının yeddi-səkkiz kilometrliyində - doğma kəndi Yuxarı Yağlıvənddə - vardövləti başından aşan, işlək, təpərli camaatı, camış ferması, inək ferması, ilxısı, Arpa-buğda zəmiləri, bağı-bostanı, günəbaxan tarlaları bol olan bu kənddə "Sarı" ləqəbi ilə tanına-tanına on səkkiz il heç yerə qaçıb eləmədi. Atası Əsgər kişinin, babası İsmixan oğlu Bəylərin, nənələri Zibanın və Tükəzbanın, anası Zərif müəllimin, adları gül qoxuyan kənd qızlarının, gəlinlərinin, Bilal müəllimin, Savalan müəllimin, Sona müəllimənin, kəndin sözü keçən kişilərinin gözünün önündəcə uşaqlıq və gəncliyini yaşadı. İlk şeirlərini də o vaxtlar yazıdı və günlərin bir günündə "bənəviş eşşəyini pəyədən çıxardıb, "toş-toş" deyədeyə, təndir çörəyini gəvələyə-gəvələyə üz tutur şəhərə (Füzuliyə)".Soruşa-soruşa "Qızıl Araz" qəzetinin redaksiyasını tapır, qəzetin redaktoru Feyruz Atakişiyevlə (özünün ifadəsincə "Fehruz əmiylə") görüşür, uşaqlıqdan canına hopmuş məzəgirliklə, əl-qolunu ölçə-ölçə ilk "şeirini" ona oxuyur:

*Sizlən bir cavab istədmim,*
*Rusca mənə "net" dediniz.*
*Saf eşqimi lağa qoyub,*
*Hərdən "privet" dediniz.*



*Ancaq düşünmədin, ay qız,*
*Gördüyün iş necə işdi.*
*Mən biləni anan sənə,*
*Rusca layla deməmişdi.*

"Fehruz əmi" ona məsləhət görür ki, pariyaydan, vətəndən, Qızıl meydandan, Lenin babadan, Əzcəzairin qəhrəman qızı Cəmilədən, Sona müəllimdən, bir may bayramından şeirlər yazsın və ustufca məktəbli Seyranı başından eləyir. Amma "Sarı"-Seyran şeir yazmağı başından qova bilmir və bir gün də şəhər klubunda Mirzə Fətəli Axundova həsr olunan tədbirdə yenə əl-qolunu ölçə-ölçə, özündən çıxa-çıxa, bircə qırnıq da karıxıb eləmədən yubiley şeirini oxuyur:

*Yazıb yaratmaq üçün gecə-gündüz çalışdın,*
*Sənətin göylərində tonqal kimi alışdın.*
*Qələmini bircə an sən əlindən qoymadın,*
*Əsərlər yaratmaqdan yorulmadın, doymadın.*

"Camaat çəpik çalmağında davam eləyirdi, mən Savalan müəllimin yanına gəlməmiş təzədən taxta pillələrlə səhnəyə qalxıb şeir dediyim yerdə dayandım, alqışlar lap ərşə dirəndi, sonra camaata baş əydim və qayıdıb pillələrlə salona düşmək istəyəndə gördüm ki, kimsə qolumdan yapışdı, çönüb gördüm ki,Bakıdan gələn nazir əmidi(Qurban Xəlilov). O məni qucağına alıb göyə qaldırdı, sonra yerə qoyub üzümdən öpdü, əlimdən tutub üzünü camaata tutdu:

-Yoldaşlar! Bu uşağın böyük gələcəyi var."

Seyran Səxavət ədəbiyyata şeirlə gəlib -altmışıncı illər onun yaradıcılığının şair dövrüdür.

### *Mən belə düşünürəm ki,*

***Seyran Səxavətin şeirləri olmasaydı, onun yaradıcılığında mütləq bir çat yaranardı.Çünki Seyranın görkəmli bir nasir kimi formalaşmasında, ədəbiyyata bu qədər cani-dildən bağlanmasında bu şeirlərin mütləq mənada böyük rolu var.Şeir yazmaq o deməkdir ki, sən sözün sehrinə düşürsən, hər adilikdə bir qeyri-adilik axtarırsan, ritm, ahəng, musiqi-şeirin bu ecazkar qüvvələri səni öz əsarəti altına alır, sən dünyanın rənglərini, işığın gözəlliyini, yaşamağın, varlığın, həyatın, sevginin şeiriyyətini yaratmağa can atırsan.***

Seyranın şeirlərində də o illərin ürəyində işıqları sayrışan cavan bir şairinin dünya ilə harmoniyasını hiss etdim. Onun şeiri ilə sonrakı illərdə yazdığı nəsr əsərlərini müqayisə etdim,təbii ki, şeirlərindəki o sadə və səmimi notlar, bədii təsvir vasitələrindəki rəngarənglik nəsrində də davam edir, amma bu yalnız zahiri oxşarlıqdır. Nəsrindəki o təhkiyeyi-kəlam, obrazların danışıq tərzi, müxtəlif hadisələrin yaratdığı emosional çalarlar, kolorit, Qarabağ ləhcəsindən gələn o şirinlik şeirlərində qətiyyən nəzərə çarpmır.

**Seyran Səxavətin şeirləri öz yaşıdlarının (Nüsrətin, Çingizin, Sabirin) yazdıqlarından seçilirdi və bu da poetik fərdi düşüncənin əlamətiydi. O, bir kimsəni təqlid eləmək ya bir kimsədən hansısa təşbihi ya obrazı götürüb istismar etmək fikrində olmamış və ola da bilməzdi. Seyran Səxavət bir insan kimi səmimiyyəti və şəxsiyyəti ilə heç kimə bənzəmədiyi kimi, şeirində də, nəsrində də özü oldu.İndi gəlin, onun bir neçə şeirinə nəzər salaq.**

**(ardı var)**

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# Daşnaksütyun partiyasının edəcəyi bir iş yoxdur - Ermənistanın baş nazirinin 1923-cü il məruzəsi *(16-23-cü maddələr)*

**(əvvəli ötən saylarımızda)**

**16. Seymdə baş verən anlaşmazlıqları heç bir kompromislə yatırtmaq mümkün deyildi. Bir partlayış qaçılmaz idi.**

Gürcülər bizim onların çiynində lazımsız yük olduğumuzu, biz olmadan da öz işlərini rahatlıqla həll edə biləcəklərini başa düşürdülər. Azərbaycanlıların isə tək bir arzusu vardı: tezlikə türklərlə birləşib Bakıya girmək. Türklərin zəfərlərindən sonra azərbaycanlıların Cənubi Qafqaz Federasiyasına ehtiyacları qalmamışdı. Gürcülər onlara lazım deyildi, erməniləri isə düşmən olaraq görürdülər.

Parçalanma zamanı gəlmişdi.

26 may, Seym Cənubi Qafqaz xalqları arasında savaş və sülh mövzularıyla bağlı əsaslı fikir ayrılıqları olduğuna diqqət çəkərək səlahiyyətlərindən imtina etdi.

Eyni gündə və eyni binada Gürcü Milli Şurası Gürcüstanın müstəqilliyini təntənə ilə elan etdi.

Bir gün sonra eyni addımı Azərbaycan da atdı.

Növbə Ermənistana gəlmişdi.

Biz müstəqilliyimizi elan etməli idikmi? Öz dövlətimizi qurmaq və onu yaşatmağa gücümüz varmıydı?

***Bu suallar gülünc və lazımsız idi. 1918-ci il mayın sonlarından seçim etmək üçün nə yer, nə də zaman vardı. rarix bizi bəlli bir hala gətirib çıxartmışdı. Cəsarətimizi toplamaq və bunu həll etmək məcburiyyətində idik, çünki yox olmaq istəmirdik. Ermənistana sahib çıxmalı idi, əks təqdirdə onu sonsuza qədər itirəcəkdik. Kiçik bir tərəddüd res nullius (sahibsiz əşya) vəziyyətini doğuracaqdı və bu halımızla qonşularımı olan türklər, gürcülər və tatarlar üçün qənimət halına gələcəkdik.***

28 may tarixində gecənin yarısı Mərkəzi Milli Şura Ermənistanı müstəqil dövlət və özünü bu dövlətin ən yüksək suveren hakimiyyəti olaraq elan etdi.

**17. 22-26 may tarixlərində Sərdarabad, 25-28 may tarixlərində də Qarakilsə döyüşləri baş tutdu.**

Erməni xalqı öz varlığını qorumaq üçün bütün gücünü ortaya qoymuşdu. Heç şübhəsiz ki, bu çətin müharibələr xalq kütləsinin (çünki artıq ordu yox idi) sərgilədiyi bu qəhrəmanca direniş (xüsusilə Qarakilsə ətrafında) türklərin gözündə bizim əhəmiyyətimizi bir o qədər artırdı və sülh əldə edilməsinə imkan yaratdı.

Bu dəfə artıq Ermənistan Respublikası adına hərəkət edən və Milli Şuradan səlahiyyət almış erməni nümayəndələr yenidən Batumiyə qayıtdılar və 4 iyun günü müqavilə imzalandı.

Erməni xalqının həyatında bu yeni bir dövr idi; keçmişdə itirilən dövlət sisteminin yenidən doğuş dövrü.

**18. 1 Avqust Yerevanda ermənistan parlamenti işə başladı və ilk hökümət quruldu.**

Məclis yenə eyni Milli Şura üzvlərinin mövcud sayını üç qat artırılaraq yaradılmışdı. Üzvlərin arasında 6 müsəlman, 1 rus və 1 Yezidi kürdü əlavə olunmuşdu. Üstünlük Daşnaksütyunun əlində idi. Bizim fraksiya 47 səsdən 18-inə sahib idi və başqa heç bir fraksiya ilə blok qurmadığı üçün parlamentin sabit mərkəzi və bəlli bir siyasi kimliyi yox idi.

Hökümət də sabit deyildi. İlk 10 ay ərəfəsində nazirlər kabineti dörd dəfə dəyişdi, fəqət bu hökümətlərdə baş nazir həmişə eyni adam idi.

Qurulan ilk hökümətlə koalisiya idi (Daşnaklar, Gənclər və müstəqil bir müdafiə naziri). Koalisiya hökümətinin sağlam bir bünövrəsi yox idi, çünki parlamentdə zəmanətli çoxluğa sahib deyildi (gənclər tez-tez daşnaklardan ayrılırdılar). Ən önəmlisi də koalisiya hökümətini təşkil edən partiyalar arasında proqram əsasında bəlli bir anlaşma yox idi. Partiyamızın hökümətə qarşı göstərdiyi münasibət də bu mövzuda bir əngəl yaratmaqda idi.

**19. Çox vacib bildiyim və aşağıda açıqlayacağım bir səhvi də burada qeyd etmək istəyirəm.**

Ermənistan demokratik respublika idi. Daşnaksütyun buna qarşı deyildi, həmçinin bu mövzuda israrlı olmuşdu. Respublika parlamentar dövlətlərin sahib olduğu qurumlara sahib idi. Xalq təmsilçilərindən obarət təkməclisli hüquqi orqanı və ona qarşı cavabdeh olan bir hökümət var idi. Parlament sözündən bəhs etdiyim dövrdə fəaliyyət göstərən dörd partiyanın və etnik azlıqların təmsilçilərindən ibarət idi və daha sonra demokratik prinsiplərə uyğun olaraq yaradıldı. Hökümət öz səlahiyyətlərini hüquqi orqanın almaqda idi (Ermənistanda prezident yox idi) və ona cavabdeh idi.

Formal olaraq belə idi.

Amma gerçəklik isə fərqli idi.

***Gerçəkdə bizim partiya həm hüquqi orqanını, həm də höküməti öz idarəsi altında almaq istəyirdi. Açığı bir diktatorluq elan etməyə cəsarətimiz (və imkanımız) yox idi. Və parlament çərçivəsində də qalmaq istəmirdik. Ermənistanda ittihadçı bir xətt izləməyə çalışırdıq (demokratik idarə bayrağı altında partiya diktatorluğu).***

***Nəticədə hakimiyyət ikibaşlı hala gəldi; hakimiyyət rəsmən parlamentə və onun qurduğu hökümətə, feilən isə partiyaya və onun orqanlarına aid idi.***

Təbii ki rəsmi və qeyri-rəsmi olaraq tətbiq olunan bu iki hakimiyyət növü bir-birini əngəlləməkdən başqa bir şey deyildi. Rəsmi şərtlər partiyanın azad və çevik davranmasına, öz iradəsini ortaya qoymasına imkan vermirdi; partiyanın müdaxilələri də hökümətin öz uyğun bildiyi formada hərəkət etməsini əngəlləyirdi. Bu vəziyyət koalisiyanın qurulması içini çox çətinləşdirirdi. Həqiqətən də koalisiya hö-




kümətinin yad ünsürləri özlərinə aid olmayan hökümətdən kənardakı, müdaxilə edə bilmədikləri partiya qurumlarında bəlli edilmiş siyasətləri tətbiq etmək məcburiyyətində qalırdılar.

Yazda partiyanın səlahiyyətli orqanının verdiyi işə uyğun olaraq bu həssas mövzuda bir hesabat hazırlayaraq partiya konqresinə təqdim etdim. Mənim hesabatım Konstantinopolda təşkil olunan toplantıda oxundu.

Burda isə bu mövzuda sadəcə bir neçə sətirlə kifayətlənəcəyəm.

**20. Noyabr ayında sülh elan olundu. Almaniya və onun müttəfiqləri məğlub oldular.**

Alman dəstələri təcili Gürcüstanı tərk etdilər. Türklər də öz əvvəlki sərhədlərinə çəkildilər.

Ayın sonunda ingilis dəstələri - bizim müttəfiqlərimizin dəstələri - Batumiyə girdilər. Biz yeni ümidlər bəsləməyə başladıq. Sanki bizim Cənubi Qafqazdakı vəziyyətimiz əsaslı şəkildə dəyişəcəkdi. Çünki qaliblər və Tiflisdə alman dəstələrinin yerinə gələnlər bizim müttəfiqlərimiz idi. Biz də ortaq düşmana qarşı eyni cəbhələrdə döyüşmüşdük. Təbii ki biz almanlarla cici-bacı olan gürcülərə və aşkaranə türklərin tərəfinə keçmiş azərbaycanlılara nisbətdə ingilislərin xüsusi dostluğuna layiq görüləcəkdik.

Yenə yanılmışdıq. İngilislər hər hansı bir fərq qoymurdular. Bizim onların müttəfiqi olduğumuzu sanki bilmir, ya da unutmuşdular. Gürcülərə və azərbaycanlılara qarşı sərgilədikləri comərdlik qəti şəkildə gözlənilməyən və anlaşılmayan vəziyyət idi. Əlbəttə biz ingilislərin bu münasibətindən məmnun olmadıq və onların vəfasız olduğunu düşündük. Bu anlaşılmaz vəziyyəti öz yozumumuzla açıqlamaq ən asanı idi. Onların vəfasız olduğu nəticəsinə vardıq və içimiz rahatlıq tapdı. Amma bu vəfasızləğən səbəbini araşdırmadıq.

**21. Dekabrın əvvəllərində Gürcüstan-Türkiyə müharibəsi başladı, amma çox davam etmədi. Türklər Gümrüdən Pəmbəkə qədər hərəkət edərək Qarakilsəni ələ keçirəndə, gürcülər bundan yararlanmış və Ermənistanın Lori bölgəsinə əsgər yerləşdirmişdilər. Fəqət türklər geri qayıdandan sonra gürcülər Lorini boşaltmaq istəmədilər. Əksinə, hər fürsətdən yararlanaraq orada yerlərini möhkəmləndirmək istədilər.**

Bölgədə yaşayanların etirazlarını amansızcasına yatırtdılar. Lori ermənilərlə gürcülər arasında bir münaqişə mövzusu, ən ciddi sərhəd problemi oldu. Bizə təzyiq etmək üçün Gürcüstan bizi dünyadan feilən qopardı və öz sərhədlərimiz içərisinə məhkum etdi. Qaçqınlarımızı bəsləmək üçün xaricdən gətirilən buğda belə Gürcüstanda bir çox əngəllə qarşılaşır, yerinə gedib çatmırdı.

Gürcüstan Lorini işğal etdi, dəmiryolunu bağladı. Biz mühasirə içində qaldıq. Bu, artıq həqiqətən müharibə səbəbiydi. Loridəki bəzi erməni kəndlərinin ayağa qalxması və gürcü hökümətinin sərt tədbirləri isə birbaşa müharibə üçün səbəb oldu. Hökümət erməniləri kəsmək üçün sanki bir səbəb axtarırdı.

***Ordumuzda xidmət edən rus əsgərlərin provakasiyaları da çox güman bəlli bir yol oynamışdı. Gürcüstanda hökümət hər cəhdlə rus ünsürünü (ki, bu ünsür Tiflisdə çox güclü idi) zəiflətməyə, onun təsirini qırmağa və dövlət aparatını milliləşdirməyə çalışırdı. Bu məqsədlə rus məmurlarını və əsgərlərini işdən çıxarır və Gürcüstandan kənara göndərirdi.***

Ordumuzda çoxlu rus əsgər xidmət edirdi və bunların Tiflisdə (bəlkə də Denikinin könüllü dəstələrində də) əlaqələri vardı. Hərbi əməliyyatların başladılması üçün çox lazım olan düşmənlik atmosferini yaratmaq məqsədilə bizim hərbi çevrələri də çox güman onlar ayağa qaldırmışdılar.

Müharibə cəmi üç həftə davam etdi. 31 dekabr ingilislər müdaxilə etdilər və sülh bərqərar oldu. Lori müvəqqəti olaraq tərəfsiz bölgə elan edildi, orada ingilis komissarın idarəçiliyində ortaq Erməni-Gürcü hakimiyyəti təsis edildi.

Beləcə müharibə bizim baxışımızdan müsbət nəticəylə bitdi. Məqsədimizə qismən çatmışdıq (dəmiryolu əlaqəsi də ingilislərin varlığı sayəsində yenidən təmin edildi). Buna rəğmən müharibə bizi bir çox şeyləri düşnməyə vadar etdi. Cəmi-cümü 4-5 aylıq dövlət idik və bir yığın ehtiyacı olan ölkə müharibə aparırdı. Ən yaxın münasibətlərimizin yaranması vacib olan qonşumuzla döyüşürdük Çünki dünya ilə sadəcə Gürcüstan üzərindən əlaqə qura bilərdik.

Biz bunun fərqində idik və səmimi olaraq gürcülərə dostluq ab-havasında yaşamaq istəyirdik. Fəqət bacara bilmədik. Bu mövzuda müstəqil Gürcüstanın bizə qarşı sərgilədiyi münasibətlə yanaşı bizim öz gücsüzlüyümüz, siyasi qətiyyətimizin olmaması və dövlət aparatını idarə etməkdə çəkdiyimiz çətinlik də vacib rol oynadı.

**22. Burada şimalişərq sərhədlərimizdə və ölkə içində davamlı şəkildə apardığımız müharibələri də xatırlayaq.**

Biz Azərbaycanla rəsmi müharibə vəziyyətində idik, çünki Qarabağda əslində elə döyüşürdük də. Qazaxda da tez-tez döyüşlərə girirdik. Ölkə daxilində də Ağbaba, Zod, Zəngibasar, Vedibasar, Şərur-Naxçıvan və s. yerlərdə yerli müsəlman xalqla bir çox qanlı döyüşlər baş tutdu. Və bu mövzuda da Azərbaycanın bizə qarşı düşman mövqeyində olduğu şübhəsizdir. Eynilə Türkiyə və Azərbaycanda tərəfindən qaza gətirilən yerli müsəlman xalqın dövlət tərəfdarı bir xəttinin olduğu da mübahisizdir. Vacib olan budur ki, biz öz vəziyyətimizi yaxşılaşdırmaq üçün lazım olan tədbirləri nə içəridə, nə də ölkədən kənarda tapa bildik. Azərbaycan ilə az-çox qəbuledilə bilən bir modus vivendi (müvəqqəti razılıq, həll) tapa bilmədik. Müsəlman bölgələrində inzibati metodlarla sistem qura bilmədik. Silahdan istifadə, ordu yerləşdirmək, yıxmaq və qətliam törətmək məcburiyyətində qaldıq. Hətta bu mövzularda da uğursuz olduq. Ki, bu da şübhəsiz iqtidarın prestijini sarsıtdı. Vedibasar, Şərur-Naxçıvan kimi vacib məntəqələrdə öz iqtidarınızı silah gücü ilə də qura bilmədik, uduzduq və geri çəkildik.

**23. 28 may 1919-cu il müstəqilliyimizin bir illiyində parlament Ermənistanı "birləşmiş" elan etdi, başqa sözlə türk hegemonluğundan qurtulması ehtimal olunan erməni torpaqlarının da mövcud Ermənistan torpaqlarına qatıldığını elan etdi. Bu addım Türkiyə ermənilərinin bir qismi tərəfindən öz haqlarının qəsb edilməsi olaraq dəyərləndirildi, çünki bunun Türkiyədə erməni məsələsi bucağından çox təhlükəli olduğunu düşünürdülər. Çox səs-küy saldılar, etiraz etdilər və Türkiyədəki erməni məsələsi yenidən daha sıx formada Rusiyadakı erməni məsələsi ilə qarşı-qarşıya gətirildi. Həm ölkədaxili, həm də xarici liberal burjuaziya bu hərəkəti Daşnaksütyun tərəfindən həyata keçirilən özbaşına hərəkət olaraq dyərləndirdi və ona qarşı daha da hirslə davranmağa başladı.**

Bu etiraz və təlaşların heç bir əsaslı dayağı yox idi. Bir qəsb niyyəti, bir partiya tələsindən söz gedə bilməzdi və bu addımın Türkiyədəki erməni məsələsinə zərər verməyəcəyi sonralar başa düşüldü. May bəyannaməsi Türkiyədə erməni məsələsinə zərrə qədər təsir etmədi, hətta heç kim fərqinə belə varmadı.

Yenə az sonra gördük ki, bu bəyannaməni hazırlayanları Ermənistanın siyasi çəkisini artıqmaq və Avropadakı diplomatik çalışmaları asanlaşdırmaq ümidləri boşuna imişş Avropa diplomatiyasının gözündə vəziyyət heç bir formada dəyişməmişdi. Bizim parlamentin təkcə bəyannaməsi; lazım olan hərəkətlərlə dəstəklənməyən bu bəsit alət gerçəklərin təsirini dəyişdirə bilməzdi. Parisdəki milli nümayəndəliyimizin də buraxılması gözlənilə bilərdi, amma bu da edilmədi. 28 maydan sonra da Avropada iki diplomatik təmsilçilik (Cümhuriyyət heyəti və Milli heyət) yan-yana fəaliyyət göstərməyə davam etdi. Ki, bunlar eyni mövzunu, eyni yerlərdə və eyni çevrələrdə müdafiə etməkdə təlimatlandırılmışdılar. Yalnız öz aralarında səlahiyyət mübarizəsi aparan bu iki orqanın fəaliyyətlərini ucuzlaşdırmaq daha da çətinləşdi. Beləcə bizim Avropadakı cəbhəmiz parçalandı. Ermənistanda isə liberal üsnürlərlə koalisiya şansı çətinləşdi və bu səbəbdən partiyamız daha çox təcrid olundu.

Bizi Birləşmiş Ermənistan heyətini yayımlamağa sürükləyən psixoloji tələblər asanlıq açıqlana bilər.

**Bizim izlədiyimiz və heyəti haqlı olan siyasi mülahizələr də anlaşıla bilər. Yalnız gerçək budur ki, bu heyət hər hansı bir müsbət nəticə vermədi; mənfi nəticələri olduğu isə dəqiqdir (daxili anlaşmazlıqlar və mübahisələr).**

**ardı var...**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

# BİZ BÜTÜN CƏBHƏLƏRDƏ QALİB OLDUQ

**Son vaxtlar ən çox müzakirə olunan, diqqət çəkən mövzulardan biri də İkinci Qarabağ Savaşıdı. Bizim üşün Böyük Vətən Müharibəsi olan bu savaşın gündəmdə qalmasının əsas və başlıca səbəbi təbii ki, məlum tərəfin, yəni Ermənistanın və onun havadarlarının hələ də ”fil qulağında” yatmasıdı. Yəni özünü və xalqını aldatmaqda davam edən Ermənistan iqtidarı, eləcə də həmin iqtidarın düşməni olan Ermənistan müxalifəti və başda daşnaksütun partiyası olmaqla iddia edirlər ki, müharibəni uduzmayıblar. Sadəcə, hərbi uğursuzluqdu, onlar mütləq revanş edəcəklər. Yəni onlar yenidən toparlanıb Azərbaycan Ordusunu Birinci Qarabağ Savaşındakı mövqelərə geri otuzduracaqlar.**

Təbii ki, bu, yumuşaq desək, gülünc və absurd bir yanaşmadı. Birincisi ona görə ki, Azərbaycan Ordusu Ali Baş Komandanımız cənab İlham Əliyevin komandanlığı altında öz əzəli torpaqlarımızı düşməndən azad edib. Yəni biz haqq savaşında öz haqqımızı geri almışıq, ədaləti bərpa etmişik. Üstəlik, biz həm də BMT-nin ermənilər tərəfindən zibil qutusuna atılmış məlum qətnamələrini icra etmişik. Digər tərəfdən Azərbaycan xalqı işğalçılıq yox, azadlıq müharibəsi edib. Bunun üçün tökülən qan xalqın iradəsinin ifadəsidir. Şəhidlərimizin də yeri ən uca mərtəbədədi.

O ki, qaldı ermənilərin bu təlxəkliyinə, yəni guya revanş edəcəklərinə... Təbii ki, bunun arxasında erməni iqtidarının özəl maraqları durur. Bu, havadarlardan və böyük dövlətlərdən, eləcə də beynəlxalq təşkilatlardan yardım qoparmaq vasitələrindən biridir. Həmişə yazıq, məzlum imici ilə qapılar döyən, Azərbaycan Prezidentinin də vurğuladığı kimi, ”onun-bunun dabanını yalayan ermənilər” bu yolla pay toplamaq niyyətindədilər”. Görünür, ümummilli xəstəlik olan bu dilənçilik ermənilərin canından çıxa bilmir və yaxud da ermənilər onu canlarından çıxarmaq istəmirlər.

Məsələnin gündəmdə qalmasının başqa bir səbəbi isə düşmənin yenə müxtəlif vasitələrlə olmayan ordusunu silahlandırmaq cəhdləridi. Mətbuatda yer alan informasiyalardan da göründüyü kimi, Rusiyadan, Fransadan, hətta Hindistandan belə yardım adı altında Ermənistana silah-sursat gətirilib.



Ali Baş Komandanımız cənab İlham Əliyev Şuşaya səfəri zamanı üzünü düşmənə tutaraq birmənalı şəkildə dedi ki, ***”Bu gün Ermənistanda kimlərsə baş qaldırır, müharibədən, döyüşdən danışır. Bizə hədə-qorxu gəlir, mesajlar verir. Amma onlar çox yanılırlar. Bu, onlara çox baha başa gələ bilər. Açıq deyirəm, mən burdayam, Şuşadayam. Gəlmək istəyirlər, gəlsinlər. Bu dəfə onların başına bu dəmir yumuruğu elə vuracağıq ki, bir daha özlərinə gələ bilməyəcəklər. Hətta dövlət kimi də məhv olacaqlar”.***

Həqiqətən 2020-ci ilin sentyabr ayının 27-də Ali Baş Komandanın əks-hücum Əmriylə başlanan İkinci Qarabağ Savaşına qədər Azərbaycan iqtidarı, başda Azərbaycan prezidenti olmaqla ATƏT-in Minsk qrupu çərçivəsində, eləcə də birbaşa böyük dövlətlərin rəhbərləri ilə təmasda problemin sülh yolu ilə çözümünə üstünlük verərək bəyan etmişdir ki, bu proses sonsuzluğa qədər davam edə bilməz. Azərbaycan, Ermənistan, Dağlıq Qarabağ münaqişəsini dondurulmuş halda uzun müddət saxlamaq mümkün deyil.

Ən azından ona görə ki, Azərbaycan xalqının səbri də hüdudsuz deyil. Məhz bu açıq bildirişlər, eləcə də problemin çözümü ilə bağlı masaya qoyulan məsələlər hər zaman Ermənistan və onun havadarları tərəfindən yalnız masa üzərində qalmaqla bitmişdi. ATƏT-in Minsk qrupunun həmsədrləri regiona daha çox turist kimi səfərlər etmiş və hər səfərdən sonra da standart bəyanatlarla da artıq öz yararsızlıqlarını gizlədə bilməmişdilər.

Bir az da konkret desək, Minsk qrupu oyuncaq bir qurum kimi daha çox ermənipərəst mövqeyi ilə xalqımızın ironiyasına tuş gəlmişdi. Əsl həqiqətdə bu qrup Azərbaycana ermənilərin istəklərini qəbul etdirməyə maraq göstərib təyziqlər edirdi. Onlar Azərbaycan Prezidentinin qətiyyətinə tuş gələndən sonra isə səfərlərini bir az seyrəltməyə başladılar. Elə sonuncu səfərində də Ali Baş Komandanımız vurğuladı ki, ***”Mən sizi buraya dəvət etməmişəm. Mənə dedilər ki, siz gəlmək istəyirsiniz, mən də dedim gəlsinlər görək indi nə danışacaqlar?”.*** Bu, artıq o demək idi ki, Minsk qrupunun erası bitdi! Necə deyərlər, bu qrup bundan sonra nə qədər özünü ortaya çəksə də, artıq onun həll etməli olduğu problemi Azərbaycan Ordusu yüksək səviyyədə yerinə yetirib. Əgər problem - yəni Qarabağ problemi yoxdusa, deməli, Minsk qrupu da yoxdu!

İkinci Qarabağ Savaşında Azərbaycana təyziq üçün bəyanat verən bəzi ölkələr, xüsusilə Fransa özünün tutduğu mövqe ilə sübut etdi ki, onlar həm ermənilərin yanındadı, həm də problemin uzanmasını istəyirlər. Elə ölkə prezidenti beynəlxalq media təmsilçilərinə, beynəlxalq telekanallara, o cümlədən də fransalı jurnalistə verdiyi müsahibəsində açıq şəkildə bildirdi ki, məsələnin mahiyyəti, tarixi kökləri nədir və hardan qaynaqlanır. Hətta o, fransalı jurnalistə sual şəklində bildirdi ki, ”Siz Marseli ermənilərə verərsiniz? Əgər onlar üçün bu qədər qayğı nümayiş etdirirsinizsə, köçürün aparın erməniləri Marselə. Qoyun orda kompakt şəkilində yaşasınlar”. Məncə bu sərt və birmənalı mövqe Fransa siyasətinə, Fransanın ermənipərəst düşüncəli dövlət məmurlarına hədəflənmişdi. Elə bu müsahibənin yayımından sonra Fransanın Xarici İşlər Nazirliyi öncəkindən fərqli bir mövqe sergilədi. Burda onu mütləq vurğulamaq yerinə düşər ki, həqiqət acı olsa da, üstəlik o həm də yerində ortaya qoyulsa, mütləq təsirini göstərir. Elə Fransanın bizə son vaxtlarda olan münasibətindəki ılıqlıqda 44 günlük müharibəmizin təsiri sözsüzdür.

**İkinci Qarabağ Savaşında Azərbaycanın təkcə döyüş meydanında deyil, həm də siyasi meydanda, xüsusilə informasiya müstəvisində sərgilədiyi məntiq dünyaya çatdırılan həqiqətlər sübut etdi ki, Azərbaycan iqtidarı son 17 ildə bütün diqqətini məhz bu tarixi gün üçün səfərbər edibdi. Belə ki, həm ölkənin Ali Baş Komandanı, həm də Azərbaycanın prezidenti kimi cənab İlham Əliyevin şəxsən media qurumlarıyla müsahibələri, dialoqları, həmçinin prezident köməkçisi Hikmət Hacıyevin böyük işi Azərbaycanın siyasi və media müstəvisində böyük uğurlarının təminatçısı oldu. Bizim informasiya savaşında əldə etdiyimiz üstünlük həm dünyaya həqiqətlərimizin çatdırılmasına, həm də müharibədəki zəfərimizin təminatına böyük və uğurlu yol açdı. Necə deyərlər, biz bütün cəbhələrdə Qalib olduq!**



***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# ÖZÜMÜN HAQQIM VAR BARAT ÇAĞRILIM, SÖZÜMÜN HAQQI VAR YAŞAMAQ ÜÇÜN...

**Bu ilin martında Azərbaycan Yazıçılar Birliyinin Qazax Filialının sədri, Şair, Əməkdar İncəsənət Xadimi Barat Vüsalın 70 yaşı tamam olacaq.** Yubiley münasibətilə onun yaradıcılığı haqqında görkəmli ədəbiyyat və mədəniyyət xadimlərinin dedikləri dəyərli fikirlərdən bir qismini oxucularımıza təqdim etməyi qərara aldıq.

Buyurun, tanış olun.

**-1-**

Mən həmişə əyalət yazarı anlayışının əleyhinə olmuşam.Vaxtı ilə Naxçıvanda Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Qazaxda Vaqif, Səməd Vurğun, Şamaxıda Mirzə Ələkbər Sabir və başqaları yazıb yaradıblar.

Əsas olan harada yaşayıb-yaratmaq yox,necə yazmaq,nəyi yazmaqdı. Bu mənada Barat həmişə ədəbiyyata və əbədiyyətə işləyən sözü yazıb. Mən onun bir cəhətini ayrıca qeyd etmək istəyirəm.Yəni bizim Yazıçılar Birliyinin çox razı qaldığı bir cəhətini qeyd etmək istəyirəm.O da onun Yazıçılar Birliyinin Qazax filalına rəhbərlik etməsidir. Qazax dövlətimizin sərhədində yerləşir.Bir yanda Borçalılar yaşayırlar,digər tərəfdə vaxtilə Ermənistandakı soydaşlarımız yaşayırdılar.Əminəm ki, vaxt gələndə yenə yaşayacaqlar.Belə bir üçbucaqda Qazax böyük mədəniyyət mərkəzidir.Belə bir yerdə filiala rəhbərlik etmək Barat Vüsal üçün həm məsuliyyətdir,həm də şərəfdir.

**Anar,AYB-nin sədri,**
**Xalq yazıçısı.**

**-2-**

Barat Vüsalın şeirləri tarıma çəkilmiş yayı xatırladır,hədəfə dəyincə o,yenidən tarıma çəkilir.Əli tətikdə olan şairin özü də hədəfdədir. Şair hardan keçirsə ora sərhəddi.

O sərhəddə şairlər daha tez görünür,daha tez yaralanırlar,amma ölmürlər.

Şairlər yaralı olurlar,yarasız olanda ölürlər.Bəlkə də şair vətən sözünün sinonimi kimi yaşayır.Elə buna görə də şairin tərcümeyi-halı vətənin tərcümeyi-halıdır.

Başqa şəkildə,başqa yozumda,başqa məzmunda şair yoxdu,varsa o,vətən deyil.Elə ona görə də şairi nişan vermək-Vətəni nişan vermək deməkdir. Artıq öz adı ilə,öz istedadı ilə tanınan görkəmli şairimiz Barat Vüsal mənim fikirlərimi təsdiq edir.

***Biz uzaq düşmüşük toydan-mağardan,***
***Kür boyu gördüyüm axar-baxardan.***
***Orda üzümüzü sənsən ağardan,***
***Barat, sənin evin ocaq olubdu!***

**Nəriman Həsənzadə,**
**AYB Ağsaqqallar Şurasının sədri,**
**Xalq şairi.**

**-3-**

***Sən bina uçurub,bina tikirsən,***
***İnsanı uçurub tikməkdəyəm mən!***

Söhbət əsnasında bu beyti mən Baratın dilindən eşitdim və dərin məzmunlu,bütöv bir şeirə bərabər hesab etdim.Onun "Sənin kimi olacağam Azərbaycan!"şeirini kövrəlmədən oxumaq,şairə"Əhsən"demədən keçmək olmaz.Qəhər boğaza tıxanır.Bu qəhərlə birlikdə Vətən üçün belə misralar yazan şair Barata görə qürur da var!Bu həqiqi şair nəsibidir.

Onun şeirlərində Vətən məfhumu ilə xalq məhfumu vəhdətdədir.Vətən necə qlobal,uca,dərin fikirlərlə,boyalarla təsvir,tərənnüm olunursa xalq da o cür tərənnüm olunur."Türk ruhu" şeirinə diqqət edin:

***Səndə yaşar ruhlar,səndə,***
***Ruh verdikcə ruhlan sən də!***
***Ruh içində ruh var səndə,***
***İçimdəki türk ruhu, coş,***
***Yer üzünün tək ruhu,coş!***

Bu şeir əbədi mahnılardandır.Himndir!

Onun əsərlərindən mən bədii sözün qüdrətini və Azərbaycan poeziyasının əsrlərdən gələn ətrini duydum.

"Ömrünü Qazaxda yaşayan şair"Yazıçıların Qazax filialının sədrliyinə təsadüfən seçilməyib.Mən onun hələ uzun illər öz vəzifəsində qalmasını arzulayıram. Mən Baratı çox istəyirəm, həm insan, həm də şair kimi!

Təssüf ki, onu gec tanımışam. Oxuduğum az sayda şeirlərində böyük şair ruhu gördüm və sevdim.

**İsa Muğanna**
**Xalq yazıçısı**

**-4-**

Barat Vüsal klassik şeirə, aşıq poeziyasına yaxından bələddir. Bu xüsusiyyət onun yaradıcılığında tam şəkildə özünü göstərir. Həyat hadisələrinə fəal münasibət,müasirliyə meyil, doğma vətənin, xalqın dünəninə, bu gününə maraq, sevgi onun yazılarını daha məzmunlu, təravətli edir.

O, hər şeirində yeni deyim formaları, ifadə tərzləri arayıb axtarır, buna nail olur. Dili saz dilidir, oynaqdır, axıcıdır, təsirlidir. Yəqin ki, bu bir də yaxşı saz çalması ilə əlaqədardır.

***Atı otarmağa qoruqmu yoxdu,***
***Atı otarmağa çöl-çəmən çoxdu.***
***Yağı qoruğunda otlardın Qırat,***
***Yoxsa yaşamazdın, çatlardın Qırat!***
***Qocalma Qıratım, Qocal, Qıratım!***

***("Qıratın qocalığı")***

Əvvəla, Koroğlunun dayağı Qırat burada insanlaşdırılır. Onun taleyi şairi düşündürür, dilləndirir. Sonuncu misradakı "Qocalma Qıratım"la "Qocal Qıratım" fikirləri bir-birinə qarşı qoyulsa da, nəticə etibarilə eyni istəyin, arzunun ifadəsidir. "Qocalma Qıratım" da Qırata uzun ömür, cavanlıq diləyir, "Qocal Qıratın"da! Yəni çox yaşa, cavan köçmə! Məhz əsl şairlik də burada, sözü söz kimi oynadıb, qaynadıb deməkdədir.

**Hüseyn Arif,**
**Xalq şairi**

**-5-**

"Əziz Barat Vüsal!

Günaydın! Göndərdiyin qəzet, məktub və xüsusilə, şeirlərin ürəyimi dağa döndərdi. Alqış sənə!Gözəl şair kimi yetişirsən...

"Tələbə qiyməti" şeirin gəncliyi ulu və qiymətli görmək istəyən ayıq gözlü bir şairin qələmindən çıxıb. "Puşkini bilməmək ya Dantes olmaq, eyni cinayətdir gözümdə mənim!"

Əla demisən!"İmtahan verəndə coğrafiyadan, Xəritə çubuğu Arazı edin!"Bax,şeirdə orijinal söz buna deyərlər...

Yürütdüyün fikri bu dərəcədə səmimi və gözəl demək üçün fitri şair olmalısan.Görünür mütaliən gündən-günə qüvvətlənir.Azərbaycan tarixinə,Azərbaycan dərdlərinə



qaynayıb qarışırsan.Vətən taleyini öz şəxsi taleyin kimi hiss edirsən.Şair üçün bundan böyük səadət yoxdur."

**Xəlil Rza Ulutürk,**
**Xalq şairi**

**-6-**

Mənə görə Barat hərbçi şairdir.O,hər misrasında,şeirində əsgər kimidir.Barat öz-özünün həm komandiri,həm də əsgəridir. Əsl şair ədəbiyyata bir dəfəlik gəlir.

Barat Vüsal da belə şairlərdəndir.

O,etibar ediləsi adamdı,kiçik qardaşım,dostumdur.

Sevdiyim şairlər sırasında Baratın da adı var.

**Vaqif Səmədoğlu,**
**Xalq şairi**

**-7-**

Barat Vüsal bizim böyük ədəbiyyatımızın hadisəsidir.Barat Vüsalın şeirlərində üç cəhət xüsusilə diqqəti cəlb edir: Xalq poetik təfəkkürünün ən dərin qatlarından gəlmək,müasir fəlsəfi -ictimai düşüncə səviyyəsinə qalxmaq və fəal (əslində üsyankar)bir şair-intellekt mövqeyi.Buraya onun sənətkar səmimiliyini ,mütəfəkkir narahatlığını,maarifçi təmkinini də əlavə etmək olar.

Barat tarixi yaxşı bilir,yaxşı ədəbiyyatşünasdı,folklorumuzun,aşıq sənətimizin yorulmaz təbliğçisi,daxilən zəngin adamdı.Bu zənginlik daha çox intellekt zənginliyidi.Barat çevik bir təfəkkür sahibidir. O,yaxşı məktəb keçmiş şairdir.

Barat Vüsal ömrünün bütün illərini mərkəzdən kənarda yaşasa da,heç vaxt mərkəz ədəbi mühitindən uzaq olmayıb. Qazax Molla Pənah Vaqifin,Səməd Vurğunun,Osman Sarıvəllinin,İsmayıl Şıxlının,İsa Hüseynovun,Nəriman Həsənzadənin və bir çox başqa sənətkarların yurdudur.

Adətən ata ocağı başında kiçik övlad qalır.Barat da o ocağın kiçik övladı kimidir.O,tarixi qoruyur və şeirlərində də tarixi yaşadır. Baratsız Qazağın poetik landşaftında bir zirvə çatışmazdı.Vidadisiz,Vaqifsiz,Səməd Vurğunsuz,Hüseyn Arifsiz,Nəriman Həsənzadəsiz və Barat Vüsalsız Qazax Qazax olmazdı.

**Nizami Cəfərov,**
**Akademik,Millət vəkili.**

**-8-**

300 ildən üzü bəri Qazaxda özünün ədəbi yükü,söz xəzinəsi olan,təxəllüsləri "B"hərfi ilə başlayan dörd şair yetişib-Molla Vəli Vidadi,Molla Pənah Vaqif,Səməd Vurğun,Barat Vüsal.Bu,ya xoş təsadüfdür,ya da tale buyruğu...

Deyirlər,dünyanın ən dərin gölü Baykala irili-xırdalı 365 çay axır.Ancaq ondan cəmi bir çay- Yenisey çayı baş götürür.Barat Vüsal da çoxsahəli istedad sahibidir.

Onun "Təb"adlı Baykalına vətənpərvərlik, aşiqlik, tarixçilik, təbiətçilik, ilahiyyatçılıq,türkçülük və s. "çayları"axır...

**Qərib Mehdi,**
**Yaziçi-Publisist.**

**-9-**

Əziz qardaşım Barat!

Məktubun və şeirlərin mənə çatdı.Şeirlərini sevdim.Sevindim ki,məni bu qədər dərindən başa düşən oğul var!Qazax camaatı nədənsə öz cənublu qardaşlarını,cənub həsrətini tez başa düşür.Qazağa gəlirik,qazaxlaşmağa,vurğunlaşmağa,baratlaşmağa...

**Söhrab Tahir,**
**Xalq şairi.**

**-10-**

Hörmətli Vətən oğlu şair Barat Vüsal!

Şeirlər kitabını açıb "Müəllifdən"adlı parçanı oxumaq kifayətdir ki,sənin Allah tərəfindən istedadla mükafatlandığına inanasan.

Sən şair yaranıbsan!

**Mirvarid Dilbazi,**
**Xalq şairi.**

**-11-**

Hər nəsil öz yaşdaşını,öz nümayəndəsini daha çox duyur.Hesab edirəm ki,Fizulisi olan bir xalqın şairi olmaq çətindi,bu iş böyük məsuliyyət tələb edir.Barat Vüsal bu məsuliyyəti dərk edən,sözün qədir- qiymətini bilən şairdir.Söz demək xətrinə heç vaxt kağız tərg eləməyən şairdir.

O,Qazaxda Sözün qeyrətini çəkir!

**Nizaməddin Şəmsizadə,**
**Dövlət mükafatı laureatı,**
**Əməkdar Elm Xadimi.**

**-12-**

Bu gün "döyüşən" şeirimizdən şikayətlənməyə elə bir əsas yoxdur. Oxuyun Barat Vüsalın şeirlərini!

Barat Vüsalın səsi Xalq, Vətən, Millət deyib kürsüdə, tribunada boğaz cıranların səsi deyil... O Səs Xalq, Vətən, Millət sevgilərini ürəyinin dililə poeziyada əks etdirən bir şairin özünü ifadəsidir. Barat Vüsal kimi şairlərin Xalq, Vətən, Millət adından danışmağa ixtiyarı çatır.

**Vaqif Yusifli,**
**Tənqidçi-Ədəbiyyatşunas.**

**-13-**

Qazaxlıların Əcdad kultu çox güclüdür. Bu, onların epos təfəkküründən irəli gəlir. Arasıgəlməz proses kimi əcdad varisdə davam edir. (Vaqif Səməd Vurğunda, Səməd Vurğun Hüseyn Arifdə, Nəriman Həsənzadə Barat Vüsalda) Barat hər cür "izm" lərdən uzaq olaraq milli dəyərlərimizi, daha çox kişiliyi, mərdliyi, vüqarlı olmağı vəsf edir. Barat Vüsal doğma torpağın nəfəsini ciyərinə, ədəb-ərkanını ürəyinə çəkmiş görkəmli Azərbaycan şairidir. Barat Vüsal kimi şairlər yalnız ataların belindən yox, ataların yolundan gəlir. Barat Vüsalın poetik emosiyası (epik emosiyası!) yalnız ritmik intonasiya hadisəsi deyil, həm də şeirlərinin ideyasıdır, fəlsəfi refleksiyasıdır.

Barat Vüsal tariximizin şairidir. Tarixi şəxsiyyət onun poeziyasında mifə, simvola çevrilir. Bu poeziyanın strukturunu "mən" əvəzliyi müəyyənləşdirir. "Mən" mənəmlik deyil, "Mən"-Sən"dir, "O" -dur, "Onlar"dır, Qazaxdır, Azərbaycandır!

Sufiyanə qənaəti də bunu təsdiq edir:

***...Birəm, amma bir deyiləm,***
***Nə bilim, necə adamam?!***

Baratın canında, ruhunda Mövlanadan, Nizamidən gələn hikmət damarı var. Barat Vüsal yaradıcılığı bütövlükdə türk insanının, qazaxlının bədii dəyər səlnaməsidir.

**Rüstəm Kamal,**
**Tənqidçi alim.**

**-14-**

Qələm qardaşım Barat Vüsal təbiətin özü kimi təbii şairdir, gah bahar kimi çağlayır, gah payız niskilini xatırladır, gah qışın qarına-buzuna dönüb susur. Bu haldan-hala düşmə onun bir ruh adamı kimi qabarma-çəkilmələr içində olduğundan xəbər verir. Çiçəklənə bilmək, buludlana bilmək, xəzana dönmək və təbiətin sirli-sehirli dönüşü kimi təzədən puçurlamaq, dolub-doluxsunmaq... Təbii şairliyin,anadan gəlmə saz-söz adamı olmağın- vergili olmağın ayrı göstəricisi yoxdu...

**Məhərrəm Qasımlı,**
**Azərbaycan Aşıqlar Birliyinin sədri,**
**Əməkdar Elm xadimi.**

**-15-**

Barat Vüsalın yazdıqlarının arasında elə şeirlər, bəndlər, misralar var ki, onlar təkcə bədii dəyərlərinə görə deyil, həqiqi ədəbi yaradıcılıq istiqamətini nişan verir. Böyük polyak şairi Miloş yazırdı ki, həqiqi poeziya dini tərkiblidi. Barat Vüsal bunu elə şeirin özüylə deyir:

***Bir müqəddəs yazı itib,***
***Tapan gərək, izi itib.***
***Allahın bir sözü itib,***
***Şair o sözü axtarır.***

**Səlim Babulloğlu,**
**"Dünya Ədəbiyyatı" jurnalının**
**baş redaktoru.**

**-16-**

Həyatımda Qazax bölgəsindən Nüsrət Kəsəmənli qədər ikinci bir kimsəni həm şair,həm də insan kimi sevməyən bir qarabağlı olaraq ,Barat Vüsalı da indi həmin sevginin bərabərində görürəm.Elə bil ki,o sevgi Nüsrət Kəsəmənlidən sonra öz ünvanını bir az da genişləndirdi,bir az da böyütdü.Və bundan da təbii ki,şəxsən mən çox məmnunam.

Barat Vüsal şair olaraq əbədi -yaşarılıq qazanıb...

**Əbülfət Mədətoğlu**
**"Ədalət qəzetinin baş redaktoru**
**1-ci müavini**

# "Musiqini sevmək lazımdır"

*"Musiqi sənəti ağır bir sənətdir. Adam bəzən yoldan yarımçıq geri qayıtmaq istəyir, amma gedir. Bəzən sənətə davam etməmək kimi düşüncələr sənətin ağır yüklü olmasından irəli gəlir. Musiqinin çətinliyi ondadır ki, sən çox böyük bir kütlənin içərisindəsən, çoxsaylı musiqiçilərin içindəsən. Zənnimcə, insan öz işi barədə düşünərsə, çətinliklərə də sinə gərə bilər. Təbii ki, kimsə yeni-yeni işə başlayanda içində bir qorxu olur, amma bu da xoş bir çətinliklərdir". "Ədalət" qəzetinin qonağı Türkiyədə yaşayıb bizi təbliğ edən saksafon ifaçısı Teymur Məmmədovdur.*

**-İstərdim ki, oxucularımıza özünüzü təqdim edəsiniz...**

-Məmmədov Teymur Fuad oğlu. 1998-ci ildə Bakıda anadan olmuşam. Musiqi həyatım 1 saylı Süleyman Ələsgərov adına Musiqi və İncəsənət Məktəbindən başlayır. 5 il orada klarnet ifaçılığı üzrə dərslər almışam. Müəllimim böyük sənətkar Eldar Zeynalov olub. Musiqi məktəbini bitirdikdən sonra Milli Konservatoriyanın nəzdində fəaliyyət göstərən Musiqi Kollecinə daxil oldum. 2014-cü ildən 2018-ci ilədək 4 il boyunca klarnet ifaçılığı üzrə təhsilimi davam etdirdim.



Təhsil aldığım 4 il mənim üçün böyük dəyişikliklərlə yadda qaldı. Həmin illərdə saksafonu da öyrənməyə başladım. Samir Əliyev mənim dəyərli müəllimim, eyni zamanda dostum oldu. Bu günə qədər də onunla dostuq. Allah bütün müəllimlərimə can sağlığı versin.

İlk müəllimim Eldar Zeynalov, daha sonra Samir Əliyev, ondan sonra isə Arif Cahangirov müəllimlərim olub. Arif müəllim mənə cazı və saksafonu öyrədib.

Bu üç müəllim həyatımda böyük rol oynayır. Asəf Zeynallını bitirən kimi Türkiyəyə gəldim. O gündən bu vaxta qədər Türkiyədə fəaliyyət göstərirəm.

### *"Hər zaman düşüncəmdə Vətənim Azərbaycan yer alıb"*

**-Niyə burada qalıb sənətinizi davam etdirmədiniz?**

-Nədən Türkiyəni seçdim? Həmin an mənim üçün dəyişikliklər lazım idi. Musiqi Kollecini bitirdiyim zaman Türkiyədəki tanışlarım tərəfindən təkliflər oldu ki, nə üçün buraya gəlməyəsən? Mən də Türkiyəyə üz tutdum. Əslində Türkiyə mənim ömrüm deyil, yəni burada qalmaq iddiasında deyiləm.

Hər zaman düşüncəmdə Vətənim Azərbaycan yer alıb. Amma müəyyən bir müddət Türkiyədə qalıb, bir azərbaycanlı saksafonçu olaraq çalışıb öz layihələrimi gerçəkləşdirmək istəyirəm.

**-Söylədiniz ki, Türkiyədə bir müddət qalmaq istəyirsiniz. Yenidən Azərbaycana dönüb sıfırdan başlamaq, burada öz sözünü demək sizin üçün çətin olmayacaq ki?**

-Türkiyədə qalıb bir müddət sonra Azərbaycana qayıtdığım zaman sıfırdan başlamalı olacam, ya yox? Məncə, sənətkar dünyanın istənilən nöqtəsində layiqli yerini tuta bilər. Sənətçi öz işinin sənətkarıdırsa, onun hər yerdə hər zaman öz dəyəri olacaq.

**-Qardaş ölkədə özünüzü qərib hiss etmirsiniz?**

-Sözün açığı, Türkiyədə özlüyümdə bir qəriblik hiss edə bilərəm, amma o qəribliyi insanlar heç bir zaman heç bir yerdə mənə hiss etdirməyiblər.

Heç bir insan mənə qərib olduğumu hiss etdirmədi, yalnız özüm daxilimdə hiss etdim.



### *"Musiqi sənətinin öz çətinlikləri var"*

**-Çətinlikləri çoxdur bu sənətin?**

-Hər bir sənətdə olduğu kimi musiqi sənətinin də öz çətinlikləri var. Musiqi sənəti ağır bir sənətdir. Adam bəzən yoldan yarımçıq geri qayıtmaq istəyir, amma gedir. Bəzən sənətə davam etməmək kimi düşüncələr sənətin ağır yüklü olmasından irəli gəlir. Musiqinin çətinliyi ondadır ki, sən çox böyük bir kütlənin içərisindəsən, çoxsaylı musiqiçilərin içindəsən. Zənnimcə, insan öz işi barədə düşünərsə, çətinliklərə də sinə gərə bilər. Təbii ki, kimsə yeni-yeni işə başlayanda içində bir qorxu olur, amma bu da xoş bir çətinliklərdir.

**-Musiqi ruhun qidasıdır. Ruhunuzu oxşayan bəstələr hansılardır?**

-Azərbaycanın əvəzolunmaz sənətkarlarından ruhumu oxşayan mahnılar var. Rəşid Behbudovun "Sənə də qalmaz", Mirzə Babayevin "Pəncərəmə qondu çiçək"...Bu mahnıları dinlədiyim zaman keçmiş vaxtların-həmin mahnıların yazılma dövrünün incəliyini hiss edirəm.

**-Varmı, elə bir musiqi ki, məhz onu ifa etmək istəmirsiniz. Ondan ötrü ki, həmin ifa sizə nələrisə xatırladır, yada salır...**

-İfa etməmək istədiyim mahnılar yoxdur. Ola bilər ki, bəzi janrları ürəyimə yaxın bilmədiyim üçün ifa etmək istəmirəm. Amma bütün musiqilərə hörmət edirəm.

**-Ən təsirli mahnılar insan kədərli olduğu zaman yazılır. Bu fikirə münasibətiniz...**

-Bu bir tərəfdən yalnışdır, bir tərəfdən doğrudur, mənim fikrimcə. İnsan çox kədərli olduğu zaman öz həyatını düşünərək nəsə yazır. Həmin insan o an kədərli anlarını da yada salıb yaza bilər, xoş günlərini də. Odur ki, yazılan mahnı bir insan üçün kədər verə bilər, digər insan üçünsə nəyinsə xatırlanması ola bilər.

### *"Musiqiçilərin sakitliyə çox ehtiyacı var"*

**-Xarici saksafonçulardan kimləri dinləyirsiniz?**

-Kenny Garrett, Gerald Albright, Eric Marienthal, Dave Koz və digərləri dinlədiyim saksafonçular sırasındadır. Onlara qulaq asıb bəhrələnirəm. Fikrimcə, adlarını qeyd etdiyim şəxslər musiqinin hegemonlarıdır. Məhz onların ifalarını dinləməklə nələrəsə yiyələnmək olar.

**-Musiqiçilərin sakitliyə ehtiyacı var, yoxsa qulaqlar hər zaman səs tələb edir?**

-Əslində, musiqiçilərin səssizliyə, sakitliyə çox ehtiyacı var. Amma mən səssizliyə qapanmaq istədiyim anlarda belə musiqi dinləyirəm.

Həmin an oturub klassikaya qulaq asa bilərəm. O musiqilərlə qulaqlarımı sakitləşdirirəm.

**-Məşhur musiqiçi olmaq üçün insandan nə tələb olunur?**

-Məşhur musiqiçi olmaq üçün insanın gərək özgüvəni olsun. Özgüvən olmasa, nəsə əldə etmək mümkün olmayacaq. Özgüvən olmalıdır, istək olmalıdır, işinə bağlı sevgi olmalıdır və önəmlisi qorxu olmamalıdır. İnsan ancaq xoş düşüncələrlə irəliyə doğru addımlamalıdır.

**-Gənclər arasında nəfəsli alətləri və saksafonun təbliği üçün nə etmək lazımdır?**

-Yeni başlayan musiqiçilərə tövsiyyəm odur ki, nəyinsə pis-yaxşı olduğunu düşünmədən çalışsınlar, ifa etsinlər. Çünki bir vaxt gələcək, onlar musiqini təmsil edəcəklər. Önəmli olan əsərləri əvvəlcədən yaxşı şəkildə öyrənməkdir. Hər bir musiqiçiyə bütün musiqi alətlərini, eləcə də janrları dinləmək daha çox fayda gətirər. Musiqini sevmək lazımdır.

**-Gələcək planlarınız...**

-Musiqi ilə bağlı gələcək planlarım daha da irəliləməkdir. Musiqini, saksafonu daha çox tanıtmaq, onu fərqli-fərqli janrlarda daha çox sevdirmək başlıca məqsədimdir.

**-Sizə uğurlar arzulayıram. Çox sağ olun ki, dəvətimi qəbul etdiniz.**

-Siz sağ olun.

## *"Sonsuz minnətdarlığımı bildirirəm" - TƏŞƏKKÜR MƏKTUBU*



*Showxeber.az saytının rəhbəri Elman Məmmədovun kron, yəni bağırsağın bitişməməsi xəstəliyindən əziyyət çəkməsi barədə məlumat verib şəxsi "facebook" səhifəm üzərindən iş adamı Ruhi xanım Əliyevaya müraciət etmişdim: "Mən sizin gözəl ürəyinizin dəfələrlə şahidi olmuşam. Elman Məmmədov ağır xəstəlikdən əziyyət çəkir. Sizə müraciət edir və şəxsən öz adımdan xahiş edirəm ki, Elmanın yanında olasınız".*

*Müraciətimin ardınca Ruhi xanım Elmanla əlaqə yaradaraq görüşüb və lazımi dəstəyi göstərib.*

*Səsimə səs verdiyiniz üçün dəyərli Ruhi xanım Əliyeva, sizə təşəkkür edir, minnətdarlığımı bildirirəm: "Hörmətli Ruhi xanım, Elmanın çətin vaxtlarında onu tək qoymadığınız, maddi və mənəvi dəstəyinizi əsirgəmədiyiniz üçün sizə minnətdaram. Mən dəfələrlə sizin mərdliyinizin şahidi olmuşam. Məhz insanlar tərəfindən haqqınızda yazılan xoş sözlər də sizin ürəyinizin genişliyinə, mərdliyinizə görədir.*

*İnsanı yaxşılıqlar, gördüyü savab işlər ucaldır. Əlbət ki, o biri dünyada da biz bu əməllərimizə görə Yaradan qarşısında cavab verəcəyik. Onlarla, yüzlərlə ailəyə etdiyiniz köməkliyə, göstərdiyiniz dəstəyə və xahişim üzərinə Elmana yardımınıza görə sizə sonsuz minnətdarlığımı bildirir, təşəkkür edirəm. Allah sizi və sevdiklərinizi qorusun".*

## *Şakira izləyicilərini təəccübləndirdi*



**Dünyaca məşhur müğənni Şakira imicində dəyişikliklər edib. Saçlarını çəhrayı rəngə boyayan Şakira dəyişimini "sürpriz" qeydi ilə sosial media hesabında paylaşıb.**

Livan əsilli Kolumbiyalı müğənni Şakira son imicini sosial media hesabı üzərindən foto vasitəsilə izləyicilərinə göstərib. Sosial şəbəkələrdən tez-tez istifadə edən 44 yaşlı məşhur müğənni yeni paylaşımı ilə insanları təəccübləndirib. Belə ki, imicini dəyişərək saçlarını çəhrayı rəngə boyatdıran müğənni fotosunun üstünə "sürpriz" sözünü yazaraq tamaşaçıları heyrətləndirib. Şəxsi "instagram" profilində son dəyişimini paylaşan müğənni izləyicilər tərəfindən bəyənilib.

Belə ki, onun bu paylaşımına 1 milyon 3 yüz mindən çox bəyənmə gəlib. İzləyicilərin çoxu isə bu dəyişimin ona çox yaraşdığını yazıblar.

## *Alişan körpəsinin fotosunu paylaşan dostuna hirsləndi*



**Yeni doğulan qızının fotosunu sadəcə yaxın dostlarına göndərən Alişan uşağın fotosunun "instagram"da paylaşıldığını görüncə əsəbiləşdi.**

Populyar müğənni Alişan ilə aktrisa Buse Varolun ikinci körpəsi Eliz dünyaya gəlib. Xoş xəbər alan müğənni qızının üzünü gizlədərək yalnız ayaqlarını sosial media hesabında paylaşıb.

Amma Alişan uşağın üzünü gizlətsə də, dostları onun fotosunu paylaşıblar.

İkinci dəfə ata olmağın həyəcanını yaşayan Alişan qızının fotosunu yaxın dostlarına yollayıb. Göndərdiyi fotonun qısa zaman kəsiyində "instagram"da yayıldığını görən Alişan şok olub. Bundan sonra sosial media hesabında bir paylaşım edən müğənni "Ən yaxınlarıma fotonu göndərdim. Heç yarım saat keçməmiş qızımın fotosunu sosial şəbəkələrdə görürəm. Ayıb olsun sənə" deyərək dilə gəlib.

Alişanın yeni doğulan körpəsinin şəklini isə kimin yaydığı bilinmir.

## Dünya bu xəbərlə çalxalandı, evində təcavüz otağı var



**Müğənni Phoebe Bridgers keçmiş həyat yoldaşına qarşı cinsi istismarda günahlandırılan rok ulduzu Marylin Mansonun evində təcavüz otağının olduğunu söylədi. Mansonun evinə gəlişi nəticəsində orada belə bir otağın olduğunu deyən Bridgers bir çox insanın bundan xəbərdar olduğunu qeyd etdi.**

Məşhur rok ulduzu Marylin Manson keçmiş nişanlısı Evan Rachel Wooda cinsi təcavüz etməkdə günahlandırılmışdı. Xəbərin manşetlərdə yer almasının ardınca məşhurun izləyiciləri uzun müddət sarsılmışdı. Manson haqqında yeni bir iddia isə Phoebe Bridgers tərəfindən irəli sürüldü. Sular durulmamış, yenidən bulandı. Manson haqqında səsləndirilən fikirlər bütün dünyanı şok etdi.

### *"Ağlımıza gətirməzdik ki, təcavüz otağıdır"*

26 yaşlı müğənni Phoebe Bridgers dostları ilə birlikdə ziyarət etdikləri rok ulduzunun evində təcavüz otağının olduğunu söylədi. Bir çox insanın bundan xəbərdar olduğunu deyən müğənni "Həmin vaxt bunun sadəcə elə-belə bir otaq olduğunu zənn edirdim. Çox insanın bundan xəbəri var. Bu otaq barədə qrup rəhbərimiz bilirdi, qrupumuz bilirdi, amma heç birimiz ağlımıza gətirməzdik ki, bu bir təcavüz otağıdır" cümlələrini səsləndirərək Mansonu günahlandırdı.

### *"İddialar həqiqətin təhrif olunmuş formasıdır"*

Bridgersin iddiasının ardınca Manson "instagram" hesabında etdiyi paylaşımda "Sözün açığı, sənətim və həyatım uzun müddətdir ki, mübahisə mövzusudur. Amma haqqımda səsləndirilən son iddialar həqiqətin təhrif olunmuş dəhşətli bir formasıdır" sözlərini söylədi. Mansonun keçmiş həyat yoldaşı Dita von Teese isə məşhur rok ulduzu ilə evliliyini xəyanətə və həyat yoldaşının narkotik istifadəçisi olduğuna görə bitirdiyini söyləyərək "Xahiş edirəm, Mason haqqında səsləndirilən iddiaları mənimlə əlaqələndirməyin. Mansonda hər hansısa bir təcavüzkarlığa meyillilik əlamətlərinin olduğunu sezsəydim, 2005-ci ildə onunla evlənməzdim" söyləyib.

## "Qabırğanı nə edirəm?" - Ayan kişilərdən danışdı

**"Mən dəli-dolu insanam, ona görə də sözün düzünü deyirəm. Bilirsiniz, mən insanların daxilindən gələnləri səsləndirirəm. Mən heç bir zaman pis bir şey demirəm. Keçən dəfə söylədim ki, o kəslə ailə quraram ki, mənim yükümü çəkə bilsin".**



Adalet.az saytı xəbər verir ki, bu sözləri müğənni Ayan Babakişiyeva verilişlərdən birində qonaq olarkən səsləndirib:

"Burada pis nə var? Normal həyatda hansısa oğlan qıza elçi gedəndə qızın atası soruşur ki, nəyin var? Maşının var? Evin var? İşin, gücün var? Həmin ata balasını əziyyətlə böyüdüb. Mənim evlərim də var, maşınım da var.

Əgər mən tək yaşaya bilirəmsə, qabırğanı nə edirəm?

Mən balamı tək böyüdə bilirəm. Əgər sən məni mən yaşadığımdan bir pillə yuxarı yaşada biləcəksənsə, o zaman tanış olaq, bir-birimizi anlayaq və ailə qurub yaşayaq.

Ailə qurmaq elə-belə bir şey deyil. Bu ayaqqabı deyil ki, ayağımızı sıxsın, biz də dəyişək. Ailə məsuliyyətdir".

## Aygün və Flora Kərimova ilə münasibətindən danışdı

**Xalq artisti Faiq Ağayev "ATV Maqazin Onlarla" verilişində qonaq olarkən həmkarı Aygün Kazımova ilə küsülülüyünün səbəbini açıqlayıb:**

"Aygünlə münasibətimizin çox kəskin vaxtı idi. Şirkət dedi ki, mənə maraqlı deyil ki, siz bir-birinizlə danışırsınız, ya yox. Şirkət bizə söylədi ki, aparıcı olacaqsınız. Aygün Kazımova ilə qol-qola səhnəyə çıxdıq. Dünya incəsənətində elə bilmədiyiniz nümunələr var ki, aktyorlar



bir-birindən zəhlələri gedə-gedə rol oynayıblar bir səhnədə.

Ondan sonra Aygün məni kənara çəkib söylədi ki, kaş bu illər ərzində səninlə dost olaydım. İndi tez-tez küsüb barışırıq.

Keçən dəfə məndən bir şeyi paylaşmağı xahiş etdi, mən də yerinə yetirmədim. Mənə dedi ki, münasibətlərimizə yenidən baxmalı olacam. Dedim, bax. Bilirəm ki, harada fırransa, qayıdıb gələcək üstümə. Çünki onu mənim qədər sevən yoxdur".

Faiq Ağayev Xalq artisti Flora Kərimova ilə münasibətindən də danışıb:

**"Bizim aramızda 32 il fərq var. Mən onun yaşına, ağbirçəkliyinə hörmət edərək və böyük sənətini sevərək həyatımı davam etdirirəm. Allan ona cansağlığı versin. Bu yaxınlarda nənə olmalıdır. Allah ona həmin səadəti doyunca hiss eləməyi qismət etsin. Darıxmışam, yeni mahnılar yazsın. Hələ ki, Allahın lütfü üzərindədir, səsi yerindədir, mahnılar yazsın. Flora Kərimova ifaları Azərbaycan xalqına lazımdır. Flora Kərimova çox zəngin sənət xəzinəsinə malik bir insandır".**

---

İbrahimov Sərxan Qabil oğlunun adına məxsus B.Nuriyev küçəsi 2383/87-ci məhəllə,133 saylı mənzildə yerləşən "Ruh" MTK-nın Müqaviləsi itdiyi üçün etibarsız sayılır.

***

Cabbarzadə Mətin Kərim oğlunun adına verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə (C 026287№-li) itdiyi üçün etibarsız sayılır.

---

Aslan Mehdiyev **Elnur Məmmədova** atası
**Məmməd Məmmədovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əbülfət Mədətoğlu və Şamxal Şəbiyev **Etibar Hümbətova** oğlu
**Elmirin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səhifəni hazırladı: Rövşən Tahir


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS

**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 59**
Çapa imzalanmışdır: 08.02.2021